# PSİXOLOGİYA JURNALI

*Elmi-praktik jurnal*

*1999-cu ildən nəşr olunur* **2021 №2** *3 ayda bir dəfə nəşr olunur*

## ÜMUMİ PSİXOLOGİYA

***Nuriyeva Nişan Ç.***

Gender probleminə olan mövcud nəzəri yanaşmalar ...................................3

***Ələsgərova Günay M.***

Empatiyanin psixoloji fenomen kimi analizi.............................................10

***Qasımlı Əmrah N.***

Aqressiya və həyəcanın psixoloji xarakteristikası və onların tədqiqi ........21

## SOSİAL PSİXOLOGİYA

***Teymurova İradə A.***

Millilik və qloballaşma ..........................................................................30

***Mollayeva Zülqaydə F.***

Müharibə sosial-psixoloji hadisə kimi......................................................37

## PEDAQOJİ PSİXOLOGİYA

***Məmmədova Pərvanə İ.***

Təhsil prosesində nəzəri təfəkkürün formalaşdırılmasının şərtləri və reallaşdırılması imkanları.......................................................................46

## HÜQUQ PSİXOLOGİYASI

***Халилова Тейба Р.***

Теоретические основы исследования проблемы правосознания........51

## TİBBİ PSİXOLOGİYA

***Иманова Айнур.Ф.***

Результаты опросника dass-21 у пациентов с диабетом в период пандемии covid-19..........................................................................61

UOT 159.922

# GENDER PROBLEMİNƏ OLAN MÖVCUD NƏZƏRİ YANAŞMALAR

**Nişan Nuriyeva**

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küç. 33. indeks: AZ 1148*
*E-mail: heybetlin@mail.ru*

**Açar sözlər:** *cins, gender, maskulinizasiya, feminizasiya, gender identikliyi.*
**Keywords:** *type (sex), gender, masculinization,feminization, gender identity.*

## GİRİŞ

Fəlsəfə, psixologiya və sosiologiya elmlərində gender kateqoriyası ilə bağlı müxtəlif fikir və anlayışlar mövcuddur. Diqqətin gender anlayışı üzərində cəmlənməsinə səbəb kimi isə bioloji cins anlayışının şəxsiyyətin psixi keyfiyyətləri, davranış modeli, fəaliyyət növləri, sosial rolları, peşə seçimi inkişafı ilə bağlı əhatəli izahı verə bilməməyi idi. Bioloji və sosioloji cinsin fərqləndirilməsi ideyası amerikalı alim, antropoloq Marqaret Midə məxsusdur. “Üç primitiv cəmiyyətdə cins və temperament” adlı kitabında cins və fərqlər haqqında fikirləri daha çox feminist ideyalar kimi qəbul olunmuş, lakin sonralar digər elmlərində diqqət obyektinə çevrilərək cins və gender arasında fərqlər barəsində fikirlər irəli sürülməyə başlanılmışdır. Cins və gender eyni anlayış deyil. “Cins” – bioloji baxımdan anadangəlmədir və onu seçmirlər. “Gender” isə cəmiyyətdə kişi və qadına xas olan sosial rollar, normativ davranış, fəaliyyət növləri, xüsusiyyətlər deməkdir.

Gender sözü ilk dəfə Ann Oukli tərəfindən kişi və qadınların təkcə bioloji deyil, sosioloji olaraqda fərqləndiyini təsvir etmək üçün istifadə edilmişdir. A.Ouklinin təbirincə desək, insanlar dişi və erkək doğulur, qız və oğlan kimi böyüyməyi öyrənir, qadın və kişi kimi isə yetişib tərbiyələnirlər. [3, s. 20]

Gender məsələlərinin aktuallığı bir sıra elmlərin bu sahədə elmi-nəzəri fikirlərinin formalaşmasına səbəb oldu. Psixologiya elmində yeni bir elm sahəsi gender psixologiyasının əsası qoyuldu.

Gender psixologiyası 3 əsas suala cavab axtarırdı:

1. Kişi və qadın arasında fərqlər (fiziki olanlardan başqa) varmı və əgər varsa, onlar nələrdir?

2. Sosial fərqlər – kişi və qadınların sosial rolları necə izah edilə bilər?

3. Təbiət və ya tərbiyə digər sözlə desək fiziki xüsusiyyətlər və ya sosial amillər? [4, s. 42-43]

Tədqiqatçılar bu suallara fərqli cavablar verirlər. Məsələn, məşhur amerikalı sosioloq Talkott Parsons kişi və qadınların sosial rollarındakı fərqləri onların fiziki fərqlərindən götürmüşdür. Antropoloq Marqaret Mid, Yeni Qvineyanın üç fərqli cəmiyyətini araşdıraraq belə nəticəyə gəldi ki, kişi və qadınların sosial rollarına təsir edən fiziki deyil, sosial-mədəni amillərdir.

Z. Freydin nəzəriyyəsini kişi və qadınlar arasında psixoloji fərqlərin öyrənilməsi problemi ilə məşğul olan ilk psixoloji nəzəriyyələr sırasına aid etmək olar. Psixoanaliz ideyalarına görə, gender xüsusiyyətlərinin formalaşması daha çox bioloji amil, eləcə də ailə tərbiyəsinin ilkin mərhələləri ilə müəyyən edilir. Şəxsiyyətin inkişafında valideyinlərin rolu və uşaqlıq amili psixoanalizdə üstünlük təşkil edir: doğulan zaman körpənin cinsindən asılı olaraq valideynləri balaca ilə müəyyən davranış modeli seçməyə sövq edir. Onlar uşağa bu ailədə kişiliyin və qadınlığın nə olduğu və necə ifadə olunduğu barədə çox sayda verbal və qeyri-verbal informasiya verirlər, nəticədə uşaqda spesifik cinsi rol xüsusiyyətləri formalaşır.

Ənənəvi psixoanaliz kişi və qadınlar üçün diametral şəkildə zidd olan davranış nümunələrindən danışır. Psixoanalitik nəzəriyyəyə görə kişi davranışı kimi xarakterizə olunur: aktivlik, qətiyyət, rəqabət qabiliyyəti, nailiyyətlər sahəsinə diqqət, aqressivlik və yaradıcı fəaliyyət qabiliyyəti. Qadın davranışı kimi xarakterizə olunur: passivlik, asılılıq, qərarsızlıq, məntiqi təfəkkürün olmaması, nailiyyətlər sahəsinə diqqətin olmaması, yüksək emosionallıq, uyğunluq.

Z.Freydin hərəkət etdiyi istiqamətdə irəliləyən Analitik psixologiyanın banisi K.Q.Yunq belə bir nəticəyə gəlmişdir ki, kişinin şüuraltında zahiri həyatda sıxışdırılıb çıxarılmış, onu tamamlayan qadın əlaməti, qadının isə kişi əlaməti vardır. Kişi özünün qeyri-şüuri tamamlayıcısını qadın obrazı ilə, qadın isə kişi obrazı vasitəsilə qəbul edir. Kişilərdə bu obraz Anima, qadınlarda isə Animus kimi adlandırıldı. Bu obrazlar qadın və kişilərdə daxili qeyri-şüuri tərəf kimi özünü göstərirdi.

K.Yunqun tərəfdarları hesab edir ki, Anima və Animus bütün insanlara xasdır və insana öz şəxsiyyətinin müxtəlif gizlin xüsusiyyətlərinin dərk

olunmasında köməklik göstərir. Freydin baxışlarını davam etdirən Yunq valideynlərin uşaq üzərindəki roluna diqqəti cəmləyərək qeyd edir ki, övladın cinsiyyətindən asılı olmayaraq, ata uşağın həyatında anadan fərqli bir rol oynayır. Yunqun fikrincə, ata həmişə övladın xarici aləmdəki ümumi meyillərini və istiqamətini əks etdirir, ana isə övlada daxili aləminin hiss və arzuların inkişafı üçün əvəzolunmaz imkanlar yaradır.

O dövrün sosioloji nəzəriyyələri kişilər və qadınlar arasındakı psixoloji fərqləri cəmiyyətdəki funksiyaları baxımından nəzərdən keçirirdilər (struktur funksionalizm ideyası – 60–70-ci illər). Gender – rol yanaşması cəmiyyətdə kişi və qadın rolları arasında funksional müəyyən edilmiş fərqləri izah etməyə, ailədə kişi və qadınların rollarını dərk etməyə imkan verdi. L.Tiger və R.Foks biodeterminizmin tərəfdarları olmaqla hesab edirdilər ki, insan bioproqramlarında kişilərin qadınlar üzərində hökmranlığı anadangəlmə psixoloji xüsusiyyətlərə xasdır.

Psixologiyada gender tədqiqatlarının inkişafındakı başqa bir istiqamət qadın psixologiyasının öyrənilməsinə aid edilə bilər. Bu nəzəriyyə Qərb feminist ideologiyasının və daxili feminologiyanın təsiri altında inkişaf edib. Bu cərəyanın nümayəndələri qadın psixologiyasının kişi psixologiyasından fərqli olaraq daha mükəmməl olmasını irəli sürərək (xarici psixoloqların K.Gilliqan, M.Klein, K.Horney) feminist psixoloqların fikirlərini bölüşürlər.

Psixoloqların nailiyyəti qadınlığın daha müsbət obrazının sadəcə kişi obrazının əksi kimi deyil, yeni keyfiyyət və xüsusiyyətlərlə təqdim edilməsi idi.

Yuxarıda göstərilənlərin hamısı 1980-ci illərdə ilk gender tədqiqatlarının, gender problemlərinin və gender bərabərsizliyinin yeni nəzəri izahatlarının yaranmasına kömək etdi. Klassik Freyd nəzəriyyəsi ilə əlaqədar narazılıq 30-cu illərin ortalarında əsas diqqəti insan şəxsiyyətinin formalaşmasına, onun davranış və daxili münaqişələrini müəyyən edən mədəni və sosial şəraitdə cəmləyən yeni bir cərəyanın yaranmasına gətirib çıxartdı. Bu cərəyan «neofreydizm» adını aldı və onun ən parlaq simalarından biri Freydin ən məşhur tənqidçisi hesab olunan Karen Horni idi. Karen Horni nəzəriyyəsində psixoanalizin irəli sürdüyü nəzəri fikirləri alt-üst edərək psixologiyada sosiomədəni yanaşmanı inkişaf etdirdi, cinsi rolların formalaşmasında mədəniyyətin əhəmiyyətinə diqqəti yönəltməklə qadının «inkişafdan qalmış kişi» kimi nəzərdən keçirilməsini ciddi tənqidə tutdu. K.Horni çıxışlarında şəxsiyyətin

inkişafında sosial və mədəni amillərə xüsusi diqqət yetirir və qeyd edirdi ki, uyğunlaşma aspektləri nevrotik davranış üçün onun əsasını təşkil edən meyllərdən daha mühüm əhəmiyyətə malikdir. K.Horninin fikrincə, bizim cəmiyyət maskulin sivilizasiyasıdır. [5, s. 93-94]

Gender tədqiqatlarının əsaslandığı əsas nəzəriyyə genderin sosial quruluşu nəzəriyyəsidir. Bu tədqiqatların nəzəri əsasını gender yanaşması təşkil edir ki, bu da müəyyən davranışların və rolların cinsiyyətə necə çevrildiyini, işin necə bölündüyünü, simvolik olaraq gender fərqlərini vurğuladığını və müxtəlif sosial strukturların gender dəyərlərini necə əks etdirdiyini araşdırmaq məqsədi daşıyır.

Psixologiyada gender yanaşması kişi və qadın münasibətlərində gender bölgüsü və iyerarxiyanın nəticələrinin təhlilinə, onların ailədə və peşə sferasında şəxsin özünü reallaşdırma imkanlarına yönəlmişdir.

Ümumiyyətlə, D.Y.Pravnik psixologiyada gender məsələlərinin inkişafının 4 mərhələsini müəyyən edir [3, s. 79]:

1. Birinci mərhələ kişi və qadınların şəxsi diferensiasiyasını bioloji səbəblərlə izah edən biodeterministik anlayışların üstünlüyü ilə xarakterizə olunur.

2. İkinci mərhələ (XX əsrin 60-cı illəri) gender anlayışının sosial-mədəni hadisə kimi müəyyənləşdi-rilməsi, sosial təbəqələşmə prinsipinin nəzərə alınması ilə xarakterizə olunur.

3. Üçüncü mərhələ (XX əsrin 70-ci illəri) qadın psixologiyasının, onun xüsusiyyətlərinin öyrənilməsinə, tarazlığın, gender sistemlərinin ekvivalentliyinin qurulmasına, onların bir-birindən fərqlənmək hüququna yönəlmiş gender tədqiqatlarının yaranması ilə xarakterizə olunur.

4. Dördüncü mərhələ (90-cı illər) feminist tədqiqatlara alternativ olaraq kişi psixologiyasının öyrənilməsinə həsr edilmiş əsərlərlə xarakterizə olunur.

Gender problemi ilə bağlı mövcud nəzəri yanaşmaları sxem halına salsaq, burada 2 vacib sahənin adını vurğulamalıyıq. Bunlardan ilki gender oryentasiyası ilə, ikincisi isə psixologiya sahəsi ilə bağlı elmi biliklərdir. Gender oriyentasiyasına daxildir – feminizm nəzəriyyəsi, qadın və gender tədqiqatları. Psixologiya sahəsinə isə Cinsi fərqlərin psixologiyası, Ailə və nikah psixologiyası və s.




*Şəkil 1.1 Psixologiyada gender probleminin sxem təsviri*

Feminizm nəzəriyyəsi – nəzəriyyə cəmiyyətdə üstün mövqe daşıyan maskulinizasiyaya qarşı çıxaraq feminisit ideologiyalı qadınlar tərəfindən irəli sürülmüşdür. Feminizmin əsas iradları aşağıdakı müddəalarda ifadə olunmuşdur:

– qadınları həmişə cəmiyyətdə “kənarlaşdırıblar” və hazırda onların hakimiyyəti kişilərin hakimiyyətindən azdır;

– qadınlar bir çox sosial sferada həmişə daha az maariflənmiş olmuşlar;

– onlara sosial rol oynamaq imkanı daha az verilib və kənarda yaradıcı işlə məşğul olmaq üçün onlara daha az variantlar təklif olunur;

– sosium da qadınlar kişilərə nisbətən daha az pula və ya pulsuz daha ağır işlərə cəlb olunublar. [3, s. 105–106]

Nəzəriyyə irəli sürdüyü fikirləri 3 aspektdə nəzərdən keçirir: birinci, tədqiqat obyekti olaraq qadınların cəmiyyətdə üzləşdiyi bir sıra çətinliklər göstərilir, ikinci qadınların cəmiyyətdə əsas halqalardan biri olduğu sübut edilirdi və son olaraq üçüncü feminizm – qadın haqlarını müdafiə edərək onların cəmiyyətin bütün sahələrinə sirayət etmələrinə şərait yaratmağa çalışırdılar.

Feminizmə fərqli nəzəriyyələrin irəli sürülməsi XX əsrin 70-ci illərində qadınlarla bağlı tədqiqatları

aktual məsələ halına gətirdi. Bununla da cavabı tapılmayan bəzi məsələlərə aydınlıq gətirildi, ancaq kişilərin cəmiyyətin bir parçası olması düşüncələri inkar oluna bilməzdi. Bu səbəbdən elmi nəzəri yanaşmalarda yeni bir sahə gender tədqiqatları aparılmağa başlanıldı.

Gender tədqiqatlarında kişi və qadınların qarşılıqlı əlaqəsi cəmiyyətin bütün səviyyələrində tədqiq edilməyə başlanıldı. Həmçinin burada cins və gender anlayışlarının fərqli cəhətləri qeyd olunaraq tərif halına salındı.

## NƏTİCƏ

Cinsi fərqlərin psixologiyası differensial psixologiyanın bir sahəsidir və fərdlər arasındakı fərqləri öyrənir. Burada şəxsin xarakter və davranışı fərdiliyə, hər bir fərd isə cinsi mənsubiyyətinə görə isə dövrlərə bölünürdü. Bu sahə ilə əlaqəli isə ailə və nikah psixologiyası diqqət mərkəzinə gətirildi. Ailə və nikah psixologiyası kişi və qadın münasibətləri, ailədaxili dəyərlər və münasibətlər, rol bölgüləri, həyat yoldaşı seçimi, valideyn və uşaq munasibətəri və s. sualların açarı funksiyasını daşıyırdı. Bəzi tədqiqatçıların fikrincə, bu sahədə aparılan tədqiqatlar elmin baza əsasını təşkil edir.

Beləliklə, gender münasibətləri tarixən mübahisəli məsələlərdən olmuşdur, günümüzdə bu elmi yanaşmaya fikirlər birmənalı deyildir. Maskulin və feminist nəzəriyyələrin tərəfdarları daima "haqlı fikirlər" yürüdərək gender tədqiqatlarında bu problemə müxtəlif yanaşmalar irəli sürmüşlər. Gender identikliyi, gender sosializasiyası, sosial rol və davranışlar, normativ və informasiya təzyiqi və s. anlayışlar sırasına yeni terminlər elmə gətirildi. Gender probleminə gender tədqiqatları baxımından yeni fikir və yanaşmalar formalaşdırıldı.

***Ədəbiyyat:***


1. Abbaszadə N.D. Gender probleminin psixoloji aspektləri. Mühazirələr kursu / Müəllif-tərtibatçı-Bakı, Qərb Universitetinin Nəşriyyat-Poliqrafiya mərkəzi: 2002, 110s.
2. Əlizadə Ə.Ə. Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri. Bakı: 1975.
3. Bem S. Gender Schema Theory and Its Implications for Child Development // Signs: Journal of Women in Culture and Society. 1983. Vol. 8. № 4.- P. 598–615.
4. Берн Ш. Гендерная психология. Санкт-Петербург: 2001, 230 с.
5. Иванова Е. Гендерная проблематика в психологии. Харьков: 2001, с. 209.

6. Клецина И. С. От психологии пола – к гендерным исследованиям в психологии. М.: 2003. № 1, с. 110.
7. Майерс Д. Социальная психология. Санкт-Петербург: 2000, с. 350
8. Хорни К. Самоанализ: Психология женщины. Новые пути в психоанализе. Санкт-Петербург: 1998, с. 330.

## THE EXISTING THEORETICAL APPROACHES TO THE PROBLEM OF GENDER

***Nishan Nuriyeva***

**ABSTRACT**

In this article it was touched gender and sex concepts, at the same time their different and common features. On this work is informed the entering of the gender concept to the science as a term and the creation levels of the gender psychology. It was looked through a number of psychologists', sociologists' and researchers' approach and offers according to the gender concepts. Mainly, the theoretical approaches to the problem of gender on psychological science in this article were paid attention. The scientists' thoughts on men and women development, their place in the society were analysed theoretically.

Rəyçi M.H.Mustafayev, psixologiya üzrə fəlsəfə doktoru.
Məqalə redaksiyaya 18 mart 2021-ci ildə daxil olmuşdur.

UOT 159.9.072

# EMPATİYANIN PSİXOLOJİ FENOMEN KİMİ ANALİZİ

**Günay Ələsgərova**

*Bakı Dövlət Universiteti*
*Zahid Xəlilov küç. 33. indeks: AZ 1148*
*E-mail: gunayal18209@sabah.edu.az*

***Açar sözlər:*** *Empatiya, ayna neyronlar, prososial davranış, emosional intellekt*
***Keywords:*** *Empathy, mirror neurons, prosocial behavior, emotional intelligence*

## GİRİŞ

Empatiya insanın özünü başqasının yerinə qoyması və hadisələrə onun nöqteyi-nəzərindən baxması, o insanın hisslərini, düşüncələrini düzgün anlaması və hiss etməsi, həmçinin bu vəziyyəti ona çatdırması prosesidir [10].

Empatiya yunan dilindəki "empathia" sözündən gəlir və etimoloji olaraq "em" hissəsinin ekvivalenti "- in içində, içəridə", "pathia" hissəsinin ekvivalenti "hiss etmək" dir. Empatiya anlayışı ilk dəfə Aristotelin Ritorikasında yer almışdır. 1920-ci ildə empatiyanın tərifini "başqa bir insanın təbii olaraq eqomuza yad olduğunu anlamağın ən vacib hissəsini təşkil edən proses" kimi izah edən Ziqmund Freyd empatiyanı "subyekt ilə obyekt arasında bəzi oxşarlıqlara əsaslanan xüsusi bir identifikasiya forması" hesab edirdi. Adler Alfred isə empatiyaya başqa bir insan kimi görmək/eşitmək/hiss etmək kimi bir tərif vermişdir [2].

Empatiya mövzusundakı vacib simalardan biri olan Kohut empatiya haqqında yazdığı ilk yazılarında onu "vasitəli introspeksiya" (vicarious introspection) olaraq xarakterizə etmişdir və bunu bir insanın daxili dünyasını kəşf etmək üçün ən vacib vasitələrdən biri hesab edirdi [13].

**Empatiyanın neyrobiologiyası.** Son illərdə psixoloji nəzəriyyələrin neyrobioloji əks olunması ilə bağlı tədqiqatlar artmışdır. Empatiyanın mənşəyi haqqında dəqiq və qəti bir məlumat olmasa da təkmilləşdirilmiş görüntüləmə üsulları (ingiliscə: imaging methods) sayəsində bu mövzuda bir çox araşdırmalar aparılır. Empatiya ilə əlaqəli nevrologiya tədqiqatlarının əksəriyyəti digər insan-

lardakı ağrıları müşahidə edərək ortaya çıxan empatik reaksiyanın qiymətləndirilməsi əsasında aparılmışdır. Bu işlərdən görülən ümumi bir nəticə, başqa bir insanın yaşadığı ağrının özümüzün ağrılı olduğumuz zaman aktivləşən bəzi sinir şəbəkələrini aktivləşdirməsidir. Sözü gedən bölgələr xüsusilə ikitərəfli ön insula, dorsal ön singulat korteks, beyin kökü və serebellumdur [12]. Bu sahələr ağrının emosional komponentinin (ağrıya görə yaranan subyektiv xoşagəlməz hiss) işlənməsində iştirak edir. Tədqiqatlar göstərir ki, başqa bir insanın ağrısına şahid olduqda somatosensor emalı da eyni zamanda aktivləşir. Empatiya ilə əlaqəli beyin sahələri parasingulat korteks, ön və arxa singulat korteks və amigdaladır. Empatiya pozğunluqları isə prefrontal korteks lezyonlarında tez-tez olur. Bu məlumatlara əsasən nəticə çıxarmaq olar ki, empatiya insanda erkən yaşda inkişaf edir, çünki beynin bu bölgəsi ontogenetik cəhətdən erkən inkişaf edən limbik quruluşlarla əlaqəlidir. Həmçinin emosional reaksiyaların idarə olunmasında rol oynayan dorsolateral prefrontal korteksin (DLPFC) 25 yaşa qədər yetkinləşmədiyi də aşkar edilmişdir. Buna görə də ən effektiv və uyğun empatik reaksiya yeniyetməliyin son mərhələlərində formalaşıb tamamlana biləcəyi ideyası irəli sürülmüşdür.

Empatiya üzrə aparılmış digər bir araşdırma göz bəbəklərinin ölçüsü ilə empatiya qabiliyyəti arasındakı korrelyasiya ilə bağlıdır. Sözü gedən tədqiqatda 33 nəfər sağlam könüllüyə müxtəlif göz bəbəyi ölçüləri (60%, 100%, 160%) olan sevincli, əsəbi, kədərli, qorxmuş, təəccüblənmiş, diksinmiş və neytral üz ifadələrinə sahib insan şəkilləri göstərilmişdir. Bu zaman iştirakçıların empatiya qurma səviyyələri ölçülmüş və daha kiçik göz bəbəyi ölçüsü ilə empatiya arasında düz mütənasib bir əlaqə olduğu aşkara çıxmışdır. Həmçinin göz bəbəklərinin ölçüsünün dəyişməsinə daha çox həssaslıq göstərənlərin də empatiya qalibiyyətinin daha yüksək olduğu müşahidə olunmuşdur [11].

**Ayna neyronlar.** Empatiyanın neyrobioloji təməllərinin öyrənilməsində əhəmiyyətli irəliləyişlər ayna neyronların kəşfi ilə başlamışdır. Viker və dostları qoxu duyğusunun aynalanması prosesini araşdırdıqları funksional maqnit rezonans görüntüləmə (ingiliscə: functional magnetic resonance imaging) çalışmalarının birində diksindirici bir iy duyan və pis iydən diksinən bir adamın videosunu izləyən könüllülərin beyinlərində ortaq bir şəkildə insular sahədə funksional artma qeydə alınmışdır. Başqa sözlə, könüllülər qoxunu realda duymasalar da, sanki duyurmuş kimi hiss etdiklərini düşündürən ortaq beyin

bölgələrində avtikləşmə müşahidə olunmuşdur. Bununla bərabər, aleksitimiya (hiss və emosiyalarına tərif verə və təsvir edə bilməmək halı; emosional fərqindəlik disfunksiyası) xəstələrində də ağrı və empatiya qabiliyyətinin daha aşağı olduğu ortaya çıxmışdır [3]. Başqa bir tədqiqat da göstərir ki, yeni doğulmuş körpələrin başqa bir körpənin ağlama səsinə verdiyi reaksiya digər səslərə (süni ağlama səsi, insana aid olmayan ağlama səsi, öz ağlama səsi) verdiyi reaksiyadan çox daha həssas olur.

**Empatiyanın üç elementi.** Rocers empatiyanın üç vacib elementini təyin etmişdir. Birincisi, özünü başqa bir insanın yerinə qoymaq və şeylərə onların nöqteyi-nəzərindən baxmaqdır. Məsələn, 3 uşağı olan bir valideyn işini itirəndə özü bu situasiyada olsaydı nə edəcəyini düşünmək empatiya deyildir. Bunun əvəzinə, empatiya kiminsə 3 uşağa baxmalı olarkən işini itirməyinin nə olduğunu hiss etməkdir. İkincisi, başqalarının hiss və düşüncələrini düzgün anlamaqdır. Burada düzgünlük başqalarının vəziyyətlərini anlamağa çalışarkən çox vacibdir. Empatiyanın son elementi qurulan empatiyanı başqalarına ötürməkdir. Bu başqa bir şəxsə ötürülməsə, ilk iki element yerinə yetsə də, empatiya prosesi tamamlana bilməz. Məsələn, bir nəfər salfetka satan bir uşağı görür və neçə yaşında olduğunu, niyə işlədiyini soruşur. Ailəsinin maddi vəziyyətinin yaxşı olmadığını, bu səbəbdən yay tətilində onlara kömək etmək üçün çalışdığını söyləyir. Sonra da gülümsəyir və riyaziyyat qabiliyyətinin də yaxşılaşdığına görə bundan zövq aldığını söyləyir. Lakin adam uşağa kədərlənir və bir az pul verərək onu orada qoyur. Nəticə etibarilə bu nümunə empatiya sayıla bilməz. Bu misalı empatiya hesab etmək o halda olardı ki, adam uşaqdan bir salfetka alardı, çünki uşaq bir şey satır, dilənmir [7].

**Empatiyanın komponentləri.** Empatiyanın komponentlərinin nədən ibarət olduğu uzun müzakirə mövzusu olmuşdur. Empatiya başqalarının emosiya, hiss və düşüncələrini müəyyənləşdirmə (tanıma) və anlama prosesi kimi qəbul edilməyə başladıqdan sonra bəzi alimlər empatiyanı koqnitiv (idrak) funksiya hesab etməyə başladılar. Bəzi tədqiqatçılar isə əksinə olaraq olaraq, empatiyanı başqasının hiss etdiklərinə qarşı affektiv reaksiya olaraq qəbul edirdilər. Bununla birlikdə, çağdaş nəzəriyyəçilər və tədqiqatçıların əksəriyyəti hər iki prosesin empatiyada mövcud olduğunu qəbul edirlər. Empatiya başqalarının hisslərini anlamaq və paylaşmaq kimi qəbul edildikdə koqnitiv aspekti ilə əlaqədardır, hiss və emosiyaları bölüşmək isə emosional

aspektlə bağlıdır. Buna görə empatiyada həm koqnitiv, həm də emosional proseslərin olduğunu söyləmək daha məntiqlidir [6].

Koqnitiv komponentə daxildir:

1. Özünü başqalarından fərqləndirmək: Əvvəlcə Jon Piyajet tərəfindən ortaya qoyulmuş və empatiyanın ilkin şərti olaraq qəbul edilmişdir. Qeyd edildiyi kimi körpələr həyatın ilk illərində eqosentrik olurlar və özlərini başqalarından ayırd edə bilməyib onları bütöv olaraq qəbul edirlər. Bu səbəbdən başqalarının problemlərini öz problemləri kimi qəbul edirlər, lakin körpələr böyüdükcə özlərini digər insanlardan ayırd edə bildikləri üçün empatiya da qurmağı bacarmağa başlayırlar.
2. Emosional halları fərqləndirmək: Empatiyanın koqnitiv tərəfini yaşamaq üçün başqalarının emosional düşüncələrini, tələbatlarını və niyyətlərini onların müxtəlif emosiyaları və emosional işarələri əks etdirən üz ifadələrini tanıyaraq anlamaqla mümkündür.
3. Müxtəlif emosiyaların tanınması: Emosiyaların fərqinə varmaq güclü empatiya qurmaq üçün vacib hesab edilir, belə ki, erkən uşaqlıq insanın emosiyalarla ilk görüşdüyü bir dövrdür. Tədqiqatçılar 4–5 yaşlarında uşaqların əsas emosiya və hissləri tanıya bildiklərini, ilk tanınmış emosiya və hisslərin xoşbəxtlik olduğunu, ardından isə kədər, qəzəb və qorxu olduğunu iddia edirlər. Erkən uşaqlıq dövründə uşaqlar qəzəb və məyusluq kimi emosiyaları tanımırlarsa, empatiya qabiliyyətləri yetkinlik dövründə də tam inkişaf edə bilmir.
4. Koqnitiv rol götürmə (və ya başqasının pəncərəsindən baxmaq): Bu özünü başqalarının yerinə qoyaraq başqasının hiss, emosiya və düşüncələrini başa düşmək üçün cəhd edilən bir idrak prosesidir. Bu empatiya üçün ən çox ifadə olunan koqnitiv tələbdir. Buna rol götürmə, perspektiv götürmə və ya sosial idrak da deyilə bilər [6].

Bundan başqa, Feşbax tərfindən irəli sürülən empatiya modelinə görə empatiya üç komponentdən ibarətdir: 1. Digərlərinin emosional vəziyyətini ayırd etmək bacarığı; 2. Başqasının rolunu və perspektivini götürmək bacarığı; 3. Emosional reaksiya vermək bacarığı.

Uşaqlarda empatiyanın inkişaf mərhələləri. Hoffman təsnifatı. Hoffman uşaqlarda empatiyanın 4 inkişaf mərhələsinin izahını vermişdir:

1. Qlobal empatiya (0–1 yaş): Körpələrin digər körpələrin ağla-

masına emosional reaksiyası empatiyanın ilkin əlaməti olaraq qəbul edilir. Bir araşdırmada 6 aylıq körpələrin ağlamaqda olan həmyaşıdlarına maraq göstərdikləri və əlaqə quraraq onlara cavab verdikləri müşahidə edilmişdir. Bu səviyyədə uşaqlar üçün insanlar arasında heç bir fərq yoxdur, buna görə özlərini anaları ilə bir bütün olaraq qəbul edirlər. Anasının ağladığını görən bir körpənin anası göz yaşları tökməsə də göz yaşlarını sildiyini müşahidə etmək olar. Bu dövrdə körpələr böyüdükcə özlərini başqalarından fərqləndirməyə başlayır və sadə üz ifadələrini təqlid etmə qabiliyyəti inkişaf edir. Eyni zamanda bir körpə barmağına zərər verirsə, digər körpələr də öz barmaqları zərər görmüş kimi görsənirlər.

2. Eqosentrik empatiya (1–2 yaş): Hoffmana görə, bu dövrün başlanğıcında, uşaq fiziki cəhətdən başqalarından müstəqil olduğunu anlamağa başlayır, ancaq başqalarının da öz fərqli ehtiyaclarının ola biləcəyinin hələ fərqində deyil. Eqosentriklik uşağın empatik cavablarında özünü göstərir. Qarşı tərəfin kədərləndiyini başa düşə bilər, ancaq situasiyaya uyğun olmayan reaksiya göstərə bilirlər. Məsələn, hansısa uşağın yıxıldığını görən bir uşaq, digər uşağın anası yanında olsa da təsəlli vermək üçün yıxılan uşağın yanına öz anasını aparır.
3. Başqasının emosiya və hisslərinə qarşı empatiya (2–3 yaş – gecikmiş uşaqlıq): Bu dövrdə uşaq artıq hər kəsin öz daxili dünyasına sahib olduğunu bilir. O artıq başqalarının eyni hadisəyə fərqli emosional cavab verə biləcəyini anlamağa başlayır və başqasının nöqteyi-nəzərindən baxma qabiliyyətini inkişaf etdirir. Bu dövrdə dil bacarıqları inkişaf etdikcə emosional hallarla bağlı işarələrdən, sözlərdən istifadə edə bilirlər. Uşaqlar başqalarının perspektivlərinin bənzərsiz olduğunu başa düşürlər və uşaqlar 2 yaşlarının sonlarında digər insanlara könüllü olaraq kömək etmək istəyirlər. Hoffmanın araşdırmasına görə, uşaqlar böyüdükcə onların idrak və dil inkişafının artması ilə məyusluq və kömək edilməmək istəyi kimi daha mürəkkəb emosiya və hisslərlə empatiya qura bilirlər.
4. Başqasının həyat şərtlərinə empatiya (gecikmiş uşaqlıq – erkən yeniyetməlik): Bu dövrdə

uşaqlar bilirlər ki, digər insanların da müxtəlif keçmişləri var. Vəziyyəti yalnız göz önündə olan ipuclarına, işarələrə əsaslanaraq qiymətləndirmirlər. Şapiro qeyd edir: emosional hallarla bağlı işarələri, ipuclarını anlamağa başladığı üçün uşaq dilin inkişafı və mücərrəd düşünmənin inkişafının köməyi ilə insanların daha uzaq məsafədən baş verən, görmədikləri şeyləri də qavraya bilir [6].

**Empatiyanın əhəmiyyəti.** Empatiya səviyyəsinin insan həyatındakı əhəmiyyəti, insanların davranışlarında dəyişikliklərə səbəb olmasında özünü göstərir. Fərqli empatiya səviyyəsinə sahib insanların fərqli davranış nümunələri nümayiş etdirdikləri müşahidə olunur. Misal üçün, yüksək empatiya qabiliyyətinə sahib uşaqların emosional reaksiyalarının, özünüidarəetmə bacarıqlarının və daxili motivasiya ilə prososial davranış nümayiş etdirmə səviyyələrinin aşağı empatiya qabiliyyətinə sahib uşaqlarla müqayisədə daha yüksək olduğu müşahidə olunmuşdur. Eynilə, empatiya qabiliyyəti yüksək olan insanların empatiya qabiliyyəti az olanlara nisbətən prososial və altruistik davranışlara daha çox meyilli olduqları müşahidə olunmuşdur. Prososial davranış (ingiliscə: prosocial behaviour) digərlərinə xeyir verən könüllü davranışa deyilir. Empatiya isə prososial davranışda ən təsirli motivasiyaedici faktor olub heç bir təsdiq və ya mükafat gözləntisi yoxdur [6].

Empatiya emosional intellektin emosional komponenti olub insanların emosiyalarını tanımaq, ünsiyyətdə tərəfdaşlarının hisslərini, mövqeyini başa düşmək, dünyanın mənzərəsini başqa bir şəxsin gözü ilə təsəvvür etmək qabiliyyətidir [1]. Salovey və Mayerin verdiyi tərifə görə emosional intellekt şəxsin özünün və başqalarının emosiyalarını müşahidə etmə, aralarındakı fərqi görmə və bu informasiyanı düşüncələrində və hərəkətlərində istiqamətləndirici kimi istifadə etmə bacarığı olub sosial zəkanın bir növüdür. Kuper və Savaf isə emosional intellektin insan həyatındakı rolunu vurğulayaraq bildirmişlər ki, emosional intellektin özümüzün və başqalarının emosiyalarını tanımağı və qiymətləndirməyi öyrənməyimizi, emosiyalarla bağlı bilikləri və emosiyaların enerjisini gündəlik həyatımızda və işimizdə effektiv şəkildə əks etdirərək onlara uyğun reaksiyalar verməyimizi təmin edir. Bu təriflər nəticəsində emosional intellekt öz emosiyalarının və başqalarının emosiyalarının fərqində olma, emosiyaları tanıma və idarə etmə bacarığına sahib olma, duyğuları nə zaman, harada və necə istifadə edə biləcəyinə hakim olmaq kimi izah

edilə bilər. Yəni empatiyanın inkişafı eyni zamanda emosional intellektin inkişafına da təkan verir.

Türkiyədə 2016-cı ildə yayımlanan bir araşdırmada sağlam insanların kor insanlarla empatiya qurma bacarığı tədqiq edilmiş və bir sıra nəticələr əldə olunmuşdur. Batman universitetinin tələbələri üzərində keçirilən bu eksperiment zamanı tələbələrin dərs boyunca (45 dəqiqə) özlərini kor insanların yerinə qoya bilməkləri üçün gözləri bağlanılmışdır. Dərsin formatı ənənəvi olaraq qalmaqda idi (lövhəyə yazı yazmaq, sual vermək və s.). Dərs bitdikdən sonra tələbələrdən təəssüratlarını, dərs müddətində necə hiss etdiklərini yazmaqları istənilmişdir. Tələbələrin empatiya səviyyələri yüksək, orta və aşağı olaraq dərəcələndirilmişdir. Nəticələrə əsasən qız tələbələrin 50%-i, oğlanların isə 25%-i yüksək empatiya səviyyəsində olmuşdur. Buna əsasən qız tələbələrin empatiya qabiliyyətinin daha yüksək olduğunu demək mümkündür. Tədqiqat nəticəsində həmçinin nizamlı kitab oxuyanların empatiya qabiliyyətinin nadirən oxuyanlarla müqayisədə daha yüksək olduğu müəyyənləşmişdir. Salov və Mayer də müntəzəm kitab oxuyanların sosial şüurluluq səviyyələrinin yüksək olduğu ideyasını müdafiə etmişlər [2]. Tədqiqat nəticəsində akademik cəhətdən uğurlu tələbələrin 75%-i, akademik cəhətdən uğursuz tələbələrin isə 33.7%-nin yüksək empatiyaya malik olduğu məlum olmuşdur. Bu nəticələrə görə, akademik müvəffəqiyyət və empatiya arasında bir əlaqənin olduğunu başa düşmək olur. Bonner və Aspi orta məktəb şagirdləri üzərində etdikləri araşdırmada da akademik müvəffəqiyyət və empatiya arasında müsbət bir əlaqə tapmışdırlar. Konfliktlərə meyilli tələbələrlə yüksək empatiya qabiliyyəti arasında tərs mütənasibliyin olması bu tədqiqatın digər nəticələrindən biridir. Epştein və Brodski Qoleman da bu yanaşmanın tərəfdarlarıdırlar. Həmçinin qeyd edilməlidir ki, empatiya qabiliyyəti və akademik göstəricilər arasında səbəb-nəticə əlaqəsi məlum deyil. Bundan başqa, tədqiqatın nəticələrinə görə məlum olmuşdur ki, valideynləri boşanmamış tələbə valideynləri boşanmış tələbəyə nəzərən daha yüksək empatiya qabiliyyətinə malikdir[2]. Boston universiteti, Tibb məktəbi tərəfindən 590 tibb tələbəsi üzərində aparılan bir tədqiqata görə də empatiya qabiliyyəti ilə akademik göstəricilər arasında düz mütənasib korrelyasiya mövcuddur.

Empatiya qurma bacarığı cinsiyyətə görə müqayisə edildikdə qadınlarda empatiya qabiliyyətinin kişilərdən daha yüksək olduğu meydana çıxmışdır. Digər bir araşdırmaya

görə normadan artıq testosteron hormonu (kişi cinsiyyət hormonu, az miqdarda qadınlarda da olur) empatiya qabiliyyətini azaldır. Prof. Üstün Dökmen bu fərqi patriarxal cəmiyyət quruluşu ilə açıqlayır. Belə ki, kişilərin daha rahat fikirlərini ifadə edə bildikləri halda, qadınların təzyiq görməyi kimi situasiyalar zamanla qadınların empatiya qabiliyyətlərini inkişaf etdirməkləri ilə nəticələnib [2].

Həyata keçirilən başqa bir tədqiqata görə isə insanlar öz həmcinsləri ilə qarşı cinsin nümayəndəsi ilə müqayisədə daha rahat empatiya qururlar. Empatiya qura bilmə bacarığı ilə mənlik şüuru arasında da düz korrelyasiya olduğu ortaya çıxmışdır, yəni mənlik şüuru daha yüksək olan insan daha yüksək empatiya qabiliyyətinə malik olur [10]. Bundan başqa, musiqi ilə məşğul olan gənclərin musiqi ilə məşğul olmayanlarla müqayisədə empatiya qabiliyyəti və özünüqiymətləndirmə (self-esteem) səviyyələrinin daha yüksək olduğu tapılmışdır [4].

Yenə başqa bir tədqiqata əsasən gənclər uşaqlara və eyni zamanda yetişkinlər də gənclərə nisbətdə daha yüksək empatiya qabiliyyətinə malik olduqları aşkara çıxarılmışdır [8]. Bunu isə zamanla daha çox təcrübə toplamaq və insan münasibətlərində püxtələşməklə izah etmək olar.

Amerikanın Yeyl universitetinin 3 aylıqdan başlayaraq körpələr üzərində apardığı eksperimentlərin nəticələrinə əsasən insanlar doğuşdan yardımsevər insanlara qarşı müsbət davranışlar nümayiş etdirməyə meyilli olduğu halda, özünə bənzəməyən, özü ilə əks zövqlərə malik olanlara qarşı isə neqativ davranışlar nümayiş etdirməyə meyillidir. Lakin bu zamanla cəmiyyətin, tərbiyənin təsiri ilə dəyişə bilir. Yəni biz insanlar tolerantlığı sonradan öyrəndiyimiz üçün empatiya qabiliyyətinin inkişafına xüsusi diqqət ayırmaq kifayət qədər vacib məsələdir.

Empatiyanın araşdırılması aqressiv davranışların artması ilə sıx bağlıdır. Məlumdur ki, empatiya ilə təcavüzkarlıq və zülmkarlıq arasında tərs mütənasib əlaqə mövcuddur [10]. Son bir neçə ildə Türkiyədə aparılan tədqiqatlar göstərir ki, məktəblərdə zorakılıq, şiddət hadisələri artmaqdadır və bu zorakılıq hadisələrdə verbal (emosional) şiddət (53%) fiziki şiddətdən (22%) iki qat artıq olduğu ortaya çıxmışdır [5]. Uşaqların sosiallaşmasında ən vacib ünsiyyət mərkəzi olan məktəblərdə şiddət, zorakılıq və fərqliliklərə qarşı dözümsüzlük kimi halların mövcudluğu onların sağlam bir şəxs kimi yetişməyinə ciddi zərər verə bilir. Bu cür deviant davranışlar göstərənlərin irəli yaşlarda cinayi davranışlarında artış olduğuna və bu mənfi davranışlara məruz qalan uşaq və yeniyet-

mələrin isə sonrakı həyatlarının mənfi təsirləndiyinə dair tədqiqatlar mövcuddur [5]. Qeyd etmək lazımdır ki, empatiya şəxsiyyət kimi yeşitməkdə vacib rol oynadığı kimi, antisosial davranışların azaldılmasında xüsusilə istifadə olunur. Həmçinin prof. Dr. Yücel Kabapınar qeyd etdiyi kimi insanın təməl tələbatlarından biri kommunikasiya olub, daha yaxşı ünsiyyətin sirri özünü və başqalarını başa düşmək, özünü və başqalarını qəbul etməkdir [6]. Müasir təhsil sistemində isə şagirdlərə təhsil verməklə bərabər, uşaqların şəxsiyyət kimi formalaşması problemi də önə çəkilir. Onların sosiallaşmasını təmin edən bir qurum kimi məktəblərin digər vacib öhdəliklərindən biri də şiddət kimi deviant davranışların aradan qaldırılmasıdır. Çünki hər şeydən əvvəl sağlam xarakterli şəxsiyyətlər yetişdirmək hər bir ailənin, məktəbin, cəmiyyətin ən önəmli hədəflərindən biridir.

## NƏTİCƏ

Tədqiqatlar da göstərir ki, uşağa isti və dəstəkləyici yanaşan valideynlər və həmçinin müəllimlərin müsbət davranışları uşaqlarda empatiya qurma bacarıqlarını inkişaf etdirməyə kömək edir [9]. Lakin reallıq budur ki, hər zaman sosial mühit qeyd olunduğu kimi ideal vəziyyətdə olmur və insanın empatiya qabiliyyətini inkişaf etdirmək üçün mühitlə birbaşa əlaqədar olmayan vasitələrə yönəlməsinin vacibliyi də qeyd olunmalıdır. Burada əsas vasitələrə ən yaxşı örnəklərdən biri isə kitablar ola bilər.

İctimai və qlobal dəyərləri tanıyan, bunları mənimsəyən və davranışına da yansıdan şəxslərin yetişdirilməsi bir çox xalqların təməl yönəlişlərini təşkil edir. Bu aspektdən baxdıqda ədalət, sevgi, köməkləşmə, hörmət, tolerantlıq kimi bir sıra dəyərlərimiz vardır ki, bunlar arasında empatiya da özünə yer etməkdədir. Empatiyaya xalq arasında özünü başqasının yerinə qoymaq kimi istifadə edirik. Belə ki, cəmiyyətdə birlik-bərabərliyi toxumaqda empatiya böyük qatqıya sahibdir [5]. Nəzərə alsaq ki, azad və sülh içərisində yaşamağın açarı tolerantlıqdır, empatiya həm cəmiyyətlər, həm də fərdlər üçün həyati əhəmiyyətə malikdir.

**Ədəbiyyat:**


1. Cabbarov. R. V, Yaradıcılıq psixologiyası, Bakı, BDU, s. 1-2.
2. AB. Yrd. Doç. Dr Yusuf Arslan, Kim Daha İyi Empati Kuruyor – Empati Üzerine Mikro Bir Sosyolojik Araştırma, Yaşam Bilimleri Dergisi, 2016, Cilt 6 Sayı 2/1, s. 43- 46.
3. Altınbaş, K., Gülöksüz, S., Özçetinkaya, S., Oral, T. (2010). Empatinin biyolojik yönleri. Psikiyatride Güncel Yaklaşımlar, s. 56-70.
4. Atilla, G. (2007). Erillik/dişilik Boyutunun Empatik Beceri ile İlişkisi. Yüksek Lisans Tezi, Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitisü, Isparta, s. 15-24.
5. Çocuk Edebiyatı Eserlerinin 7. Sınıf Öğrencilerinin Empati Becerisinin Gelişimine Etkisi, YYÜ Eğitim Fakültesi Dergisi 2020, s. 34-38.
6. Gizem Nur Şakar, (2020) Supporting empathy development in children, Journal of Development and Psychology (JODAP), p. 78–90.
7. Rogers, C.R. (1983). Empatik olmak değeri anlaşılmamış bir varoluş şeklidir (F.Akkoyun, Trans.). Ankara Üniversitesitesi Eğitim Bilimleri Fakültesi Dergisi, 16(1), s. 103-124.
8. Cotton, K. (2001). Developing empathy in Children and Youth. School Improvement Research Series, Regional Educational Laboratory.
9. Empathy: definition and importance. Osmangazi Journal of Medicine (2016), p. 56-70.
10. Endersen, I. M., Olweus, D. (2001). Constructive and destructive behavior: Implications for family, school, and society. Washington, DC: American Psychological Association, p. 48-54.
11. Harrison, N.A., Wilson, C.E., Critchley, H.D. (2007). Processing of observed pupil size modulates perception of sadness and predicts empathy. Emotion, 7, p. 94–99.
12. Jabbi, M., Swart, M., Keysersa, C. (2007). Empathy for positive and negative emotions in the gustatory cortex. Neuroimage, 34, p174–175.
13. Kohut, H. (1959). Introspection, empathy, and psychoanalysis. J Amer Psychoanal Assn, 7, p.459-583.

# ANALYSİS OF EMPATHY AS A PSYCHOLOGİCAL PHENOMENON

***Gunay Alasgarova***


## ABSTRACT

Empathy is an emotional component of emotional intelligence: the ability to recognize people's emotions, understand the feelings and positions of their partners in communication, and imagine the world through the eyes of another person. The study of empathy is closely related to an increase in aggressive behavior. It is well-known that there is an inverse relationship between empathy and aggression and oppression. Also, as Prof. Dr. Yucel Kabapinar noted, one of the basic human needs is communication, and the secret of better communication is to understand oneself and others, to accept oneself and others. Like other psychological phenomena, empathy has a neurobiological basis as well, and its study helps us to understand the development of empathy deeply. In addition, the study of the stages of development of empathy in children and the cognitive and emotional processes


Rəyçi H.Ə.Əlizadə, pedaqoji elmləri doktoru, professor.
Məqalə redaksiyaya 29 mart 2021-ci ildə daxil olmuşdur.

UOT 159.9.072

# AQRESSİYA VƏ HƏYƏCANIN PSİXOLOJİ XARAKTERİSTİKASI VƏ ONLARIN TƏDQİQİ

**Əmrah Qasımlı**

*Azərbaycan Tibb Universiteti*
*Səməd Vurğun küç. 167, indeks: AZ1022*
*E-mail: emrah.qasimli@mail.ru*

***Açar sözlər:*** *aqressiya, həyəcan, təşviş pozuntuları, şiddət, qorxu*
***Keywords:*** *aggression, anxiety, anxiety disorders, violence, fear*

## GİRİŞ

Aqressiya istər gündəlik həyatda, istərsə də elmi ədəbiyyatda çox sıx istifadə edilən anlayışdır. Aqressiya latınca "aqreddi" sözündən götürülüb mənası "hücum etmək" deməkdir. Aqressiya bu cür münasibətə layiq olmayan canlı varlığın təhqir edilməsinə və ya ziyan vurulmasına yönəlmiş hər hansı bir davranış formasıdır. Bu tərifdə aqressiya emosiya, motiv və ya yönüm kimi deyil, davranış modeli kimi nəzərdən keçirilir. Aqressiya və ya aqressivlik dedikdə şəxsiyyətin əlverişsiz və zərərli ətraf aləmə reaksiyası başa düşülür. Elmi ədəbiyyatda aqressiya anlayışına bir neçə müxtəlif yanaşmalar vardır: R.S.Nemova görə, aqressiya başqalarında xoşagəlməzliklər yaradan davranış forması olub ayrı-ayrı adamlara münasibətdə təzahür edir. A.Froma görə aqressiya adı altında başqa insanlara zərər yetirən, eyni zamanda ümumiyyətlə, bütün cansız obyektlərə ziyan vuran istənilən fəaliyyət başa düşülür.

Bassa görə aqressiya özündə hədələr daşıyan və başqalarına ziyan vurmaq məqsədi daşıyan hər hansı davranışdır.

R.Beron, D.Riçardson göstərir ki, canlı orqanizmə ziyan vuran, ona xətər yetirən hər bir hərəkətə aqressiya kimi baxmaq olar. Bu sahədə araşdırma aparan alimlərin fikrincə, bütün zərər vermə və ya incitmə hərəkətləri deyil, bu məqsədlə edilən hər bir davranış aktı aqressiya kimi qiymətləndirilə bilər. Həkim boğulan bir insanın boğazında deşik açaraq onun nəfəs almasına kömək edir. Bu zaman o xəstəni incitsə də həkimin davranışını biz aqressiya kimi qiymətləndirə bilmərik.

Aqressiyanın məqsədi zərər yetirmə, qurban vermə olduğu kimi, müəyyən məqsədə çatmaq üçün də aqressiyadan istifadə oluna bilər. Mahiyyət etibarilə aqressiya həm pozitiv, həm də neqativ ola bilər. Həmçinin aqressiya ya xarici obyektlərə, ya da daxilə yönələ bilər.

Bəzən, aqressiya emosional sferanın məhsulu kimi nəzərdən keçirilir. Burada ön planda nifrət və qəzəb kimi emosional hallar – affektlər durur. Aqressiyanı motiv ilə əlaqələndirmək cəhdləri də inandırıcı görünmür. Məsələn, valideynlərin uşağını hər hansı bir dəcəlliyinə görə tənbeh etməsini kimsə aqressiya adlandıra bilməz.

Aqressiv davranışın çoxlu miqdarda müxtəlif variantlarının mövcudluğunu və hər hansı hərəkətin aqressiya sayılıb-sayılmadığının dəqiq müəyyənləşdirildiyini nəzərə alaraq, Buss tərəfindən verilmiş aqressiv davranışın çox xətli təsnifatından istifadə etmək məqsədyönlü görünür. Bu sxemə görə aqressiv hərəkətlər 3 xətt 9 ox üzrə təsvir olunur: Fiziki-verbal; aktiv-passiv; birbaşa-dolayı [3, s. 251].

Bundan əlavə, düşmənçilik və instrumental aqressiya da ayırd edilir. Birinci halda aqressorun məqsədi qurbanına zərər yetirməkdir. İkinci halda isə aqressiya əsas məqsəd olmayıb yalnız istəyə nail olmaq üçün alət rolu oynayır. Maddi maraqla əlaqədar aqressiyaya misal olaraq quldurluq qurbanına verilən xəsarət göstərilə bilər. Burada əsas məqsəd ağrı və iztirab vermək deyil, qazanc əldə etməkdir [3, s. 252].

1. Aqressiyanın təbiətini aydınlaşdıran bir neçə konsepsiya vardır ki, bunlardan biri də instiktlər haqqında təlimdir. Heyvanlarda aqressiv davranışı tədqiq edən Lorens belə bir nəticəyə gəlmişdir ki, aqressiv təzahürlər yaşamaq uğrunda mübarizədən başlanğıc götürmüş və növün sağ qalıb çoxalmasını təmin etmək funksiyasını daşıyır. Lorensə görə, aqressiv davranış toplanmış aqressiv enerjinin çıxmasına səbəb olan və ya tormozlayan xüsusi xarici amillərdən asılıdır. Ona görə aqressivlik olmadan nə elm, nə mədəniyyət, nə də digər insan xariqələri mümkün olmazdı.

2. Birinci Dünya müharibəsindən sonra Freyd hələ 1920-ci ildə belə qənaətə gəlmişdi ki, insanda həyatı məhv etməyə, dağıtmağa yönəlmiş xüsusi instinktiv meyil vardır.

3. Erik From aqressiyanın formalaşması ilə əlaqədar öz fikirlərini “İnsanın ruhu” və “İnsanın destruktivliyinin anatomiyası” əsərlərində qeyd etmişdir. Onun fikrincə, aqressiya xoşxassəli və bədxasəli olaraq iki yerə bölünür: Xoşxassəli aqressiya – buraya daha çox idman yarışları

zamanı rast gəlinən aqressiyanı aid edə bilərik. Burada məqsəd qarşıdakını öldürmək və ya zədələmək deyil, öz cəldlik və məharətini göstərməkdir. Xoşxassəli aqressiyaya başqa bir misal olaraq məqsədə nail olmağa yönəlmiş özünütəsdiq meylini göstərə bilərik. Bədxassəli aqressiya dedikdə, adətən, paxıllıq və qısqanclıq üzündən törədilmiş aqressiyalar nəzərdə tutulur [3, s. 255]. Froma görə bədxassəli aqressiyanın mənbələri aşağıdakılardır:

1. Nekrofiliya – bütün cansız əşyalara meyil, həyata qarşı biganəlik, sadələşdirmək, bəsitləşdirmək cəhdi.

2. Narsissizm – öz şəxsiyyətinə pərəstiş, özünə vurğunluq, hamını və hər şeyi şəxsi arzulara tabe etdirmək.

3. İnsestual simbioz – azadlıqdan qorxma, başqalarından asılılıq, qüvvəni şəxsləşdirmək [3, s. 256].

Aqressiv əməllər törədən insanların rəhbər tutduğu motivlər haqqında müxtəlif fikirlər olmasına rəğmən ümumi olaraq bu qruplara ayrılır:

1. Dərk olunan motivlər dedikdə konkret məqsədə çatmağa yönəlmiş hərəkətlər nəzərdə tutulur. Buna misal olaraq özünü və ətrafdakıları qorumağa, maddi mənfəət əldə etmək məqsədilə ortaya çıxan aqressiya göstərilir.

2. Dərk olunmayan motivlər – buraya realizə olunmamış, sıxışdırıb çıxarılmış fikirlər, müxtəlif komplekslər, yetişməmiş müdafiə mexanizmləri və s. aiddir. Bu cür aqressiv motivasiyaya daha çox psixopatlarda, seksual cinayət törədənlərədə rast gəlinir.

3. Psixotik motivlər – bu zaman aqressiya düşüncə pozuntusu, qavrama və təfəkkür pozuntuları ilə bağlı olur.

Aqressiyanın baş verməsinə səbəb olan müxtəlif şəxsi keyfiyyətlər də vardır:

1. Emosional defisit dedikdə başqasının vəziyyətinə acımamaq, empatiya qura bilməmək, digərlərinin hisslərinə biganəlik nəzərdə tutulur.

2. Aqressiyanın qərəzli nişanələri – buraya özünün neqativ emosional məqsədlərini başqalarına şamil etmək aiddir. Bunun nəticəsində ətrafdakıların müsbət və ya neytral hərəkətləri aqressiv cavab reaksiyaları tələb edən düşmənçilik kimi qiymətləndirilir.

3. Patoloji qıcıqlanma – hətta ən xırda təhrikedici amilə qarşı dərhal reaksiya vermək. Bu tip insanlar çox tez özündən çıxaraq münaqişəli vəziyyətdə normadan artıq aqressiv davranış formaları seçirlər.

4. İnternallıq – bu hər bir şəraitdə hadisələrin gedişatına təsir edə bilməyə olan inamdır. Müxtəlif tədqiqatlara görə internal insanlar aqressiyanı istədikləri məqsədə çatmaq üçün vasitə hesab edirlər.

5. Xəcalət hissi dedikdə insanın "mən"ini neqativ qiymətləndirməsi nəzərdə tutulur. Qəribə görünməsinə baxmayaraq tez-tez xəcalət çəkən insanlar özlərini təhqir olunmuş hiss etdikdə "günahkar" olan şəxslərə qarşı nifrət və düşmənçilik hissi bəsləyirlər.

Aqressiyaya meyillilik baxımından qadın və kişi arasındakı hamıya məlum fərqlər aqressiv davranışın X və Y xromosomları ilə bir əlaqəsini fərz etməyə əsas verdi. Bir sıra tədqiqatlar xromosomlarında XYY anomaliyası olan kişilərin öyrənilməsinə həsr edilmişdir. Məlum olmuşdur ki, bu şəxslər arasında cinayətə məhkum olunmuşların sayı normal insanlara nisbətən qat-qat yüksəkdir. Onların arasında təkrar məhkum olunma hallarına da daha çox rast gəlinmişdir.

"Həyəcan" anlayışını psixologiyaya Z.Freyd gətirmişdir və bir sıra müasir tədqiqatçılar həyəcanı qorxunun bir növü kimi nəzərdən keçirməkdədirlər. Həyəcan müəyyən xarici, eləcə də daxili stimulların çox qısa müddətdə fizioloji stimullaşdırma, həmçinin gərginlik yaratması və insana psixoloji təsir göstərməsidir. Həyəcan gələcəyə aid fantaziyanın, təxəyyülün nəticəsi kimi ortaya çıxır. O, qeyri-müəyyən şəraitdə insan üçün çox vacib, əhəmiyyətli olanın gözlənilməsi və ya fərd tərəfindən uğursuzluğun, təhlükənin proqnozlaşdırılması ilə əlaqədar olan kəskin daxili məzmunsuz narahatlıq haləti kimi anlaşılır. Emosiyaların psixologiyasında həyəcan ayrıca bir kateqoriya kimi nəzərdən keçirilmir. O, insanın əhəmiyyətli fəaliyyətdən və ya görüşdən öncə təzahür etdirdiyi narahatlıq, situativ hadisə, qorxu halətlərini əks etdirən məişət anlayışı kimi qəbul olunur. E.P.İlin həyəcanı aşırı səviyyəli emosional oyanma kimi müəyyənləşdirir.

Zehni olaraq bir şeyi təsəvvür etmək belə həyəcan hissi yarada bilər. Həyəcanın insanlar üzərində təsiri qısamüddətli olur. Həyəcan müvəqqətidir və insanların hərəkət etmə ehtimalını artırır. Həyəcan insanların həyat keyfiyyətini yaxşılaşdırır və həyatda prioritetlərimizi müəyyənləşdirməyimizə kömək edir. Bütün insanlar eyni səviyyədə həyəcan keçirmirlər. Tomkins həyəcanın aclıq, susuzluq və seksuallıq kimi bioloji sürücülərdən daha güclü olduğunu söyləyən ilk alim idi. Həyəcan hissi əslində zehni olsa da, bütün bədənə təsir edir. Həyəcanlar anın şərtlərindən asılı olaraq diqqətimizi nəyə yönəldəcəyimizi də müəyyənləşdirir. Məsələn, ani bir zəlzələ olduqda, hələ də film izləməyə davam edə bilmirik və diqqətimizi yeni stimula yönəldirik. Həyəcanı qorxu ilə qarışdırmaq olmaz. Belə ki, qorxunun konkret mənbəyi vardır, o, şərtiz

təhlükəli qiymətləndirilən müəyyən obyektlə əlaqədardır. Həyəcanın yaranması üçün isə dəqiq və konkret bəhanəyə ehtiyac olmur. İnsanın qorxu reaksiyası göstərməyə bioloji meyilli olduğu stimullar və situasiyalar kompleksi movcuddur. Bir çox müəlliflər belə təbii siqnallara ağrını, tənhalığı, stimulyasiyanın gözlənilməz dəyişikliyini aid edirlər. Həyəcanlar qəfil qərarlar qəbul etməyə imkan verir, lakin bu vəziyyət bəzən həyatımızı xilas edə bilər, bəzən də pis nəticələrə səbəb ola bilər. Məsələn, maşının yolda sürətlə gəldiyini görəndə dayanmaq və düşünmək əvəzinə sürətlə uzaqlaşmağımızı təmin edən həyəcanın təsiridir. Ancaq çox xoşbəxt olduğumuz zaman birinə tuta bilməyəcəyimiz vədlər vermək də pis nəticələrə səbəb ola bilər [5].

Həyəcan hər bir insanın şəxsi keyfiyyətlərindən və ya həyəcan yaradan səbəblərdən asılı olaraq müxtəlif cür təzahür edə bilir. Bu kimi zaman mədədə kəpənək varmış hissi kimi, bəzi hallarda isə ürək döyüntüsü kimi özünü göstərir.

İnsanların həyəcan keçirmlərinin digər yolları arasında kabuslar, panik ataklar, idarə edilə bilməyən acı verici düşüncələrin təkrar-təkrar düşünülməsi yer alır. Xəstə ümumi bir qorxu və narahatlıq hissi keçirə, yaxud müəyyən konkret yerdən və ya hadisədən qorxa bilər. Ümumi narahatlığın simptomları aşağıdakılardır:

1. Ürək döyüntüsünün artması
2. Sürətli nəfəs alma
3. Narahatlıq
4. Diqqət pozuntusu
5. Yuxu problemləri

Belə bir sual çıxır ki, həyəcanın səbəbi nədir? Tədqiqatçılar narahatlığın dəqiq səbəbindən əmin deyillər. Ancaq ehtimal ki, bir sıra amillərin rolu var. Bunlara genetik və ətraf mühit faktorları ilə yanaşı beyin kimyası da daxildir. Bundan əlavə, tədqiqatçılar qorxunun idarə edilməsindən məsul olan beyin sahələrinin təsirlənə biləcəyinə inanırlar.

Stress və narahatlıq bir almanın iki yarısıdır. Stress insanın beyninə və ya bədəninə olan tələblərin nəticəsidir. Bunun səbəbi insanı əsəbi və ya narahat edən bir hadisə, yaxud fəaliyyət ola bilər. Həyəcan stresə bir reaksiya ola bilər, ancaq açıq bir stresi olmayan insanlarda da ola bilər. Həm narahatlıq, həm də stress fiziki və zehni simptomlara səbəb olur ki, bunlar da aşağıdakılardır:

Baş ağrısı, mədə ağrısı, sürətli ürək döyüntüsü, tərləmə, başgicəllənmə, sarsıntı, əzələ gərginliyi, sürətli nəfəs alma, təlaş, diqqət pozuntusu, irrasional qəzəb və ya əsəbilik, narahatlıq, yuxusuzluq.

Nə stress, nə də narahatlıq həmişə pis deyildir. Onlar insana müəyyən

işi yerinə yetirmək və qarşısına çıxan əngəlləri aşmağa stimul verir. Lakin bu davamlı olduğu zaman insanın həyatına ciddi dağıdıcı təsir göstərə bilir və bu zaman müalicə almaq vacibdir [6]. Şiddətli həyəcan fiziki və zehni bir dəyişikliyə səbəb olur:

1. Anormal sinir cərəyan gücü olur. Təbii yollar daşır. Beyin də daxil olmaqla bütün orqanizm alt-üst olur. Beyin (beyin qabığı) qarışıq olur, insan nə etdiyini bilmir.

2. Qorxu və ya qəzəb kimi güclü bir həyəcan adrenalin artımına səbəb olur. Adrenalin, böyrəküstü vəzlər tərəfindən sərbəst buraxılan bir maddədir. Bu vəzilər böyrəklərin ön ucunda yerləşir və endokrin vəzilərlə əlaqəli elementlərdən ibarət bir bütövlükdə yerləşir. Hər birinin çəkisi təxminən 6 qramdır.

Həyəcan pozuntuları psixiatriyada bir neçə xəstəliyi özündə birləşdirən xəstəliklər toplusudur. Buraya yayılmış sosial fobiya, panik pozuntu, obsessiv kompulsiv pozuntu kimi cəmiyyətdə çox tez-tez rast gəlinən xəstəliklər daxildir. Bunların arasında isə ən geniş yayılanı məhz həyəcan pozuntusudur.

Bu xəstəlik özünü psixoloji və somatik olmaqla 2 qrup əlamətlə biruzə verir:

1) Psixoloji həyəcan pozuntusu xəstəliyi özünü ifrat həyəcanla göstərən bir xəstəlikdir. Belə ki, ən əsas əlaməti səbəbsiz, xəstənin özünə də mənasız gələn həyəcan tutmalarıdır. Bundan başqa, xəstələr ən çox valideynlərinin, övladlarının və ya həyat yoldaşlarının başına pis iş gələcəyindən, evə telefon zəngi daxil olduqda bəd xəbər olacağından qorxurlar. Bu fikirlər o qədər güclü olur ki, hətta bəziləri gecə yaxınlarının nəfəs alıb almadıqlarını yoxlaya, kontrol edə bilirlər. Diqqət və konsentrasiyalarında azalma, tez-tez və səbəbsiz əsəbiləşmək, tez yorulma, ölüm qorxusu, ağlamaq, yuxusuzluq, həvəzsizlik, istəksizlik də həyəcan pozuntusunun psixoloji əlamətləridir.

2) Somatik əlamətlər dedikdə biz orqanizmdə özünü göstərən əlamətləri nəzərdə tuturuq. Bunlardan ən önəmlisi ürəkdöyünmə və ya çırpınmasıdır. Bunlardan başqa, boğulma, tam nəfəs ala bilməmək, boğazda "nəsə ilişib qalıb" hissi, boyun, kürək və başda ağrılar, bədəni istilik basması, tərləmə, ağızda quruluq və s. hisslər hakim kəsilir. Bu hisslər o qədər güclü olur ki, pasiyentlər tanıdıqları bütün ürək həkimlərini, terapevtləri gəzirlər və əksər hallarda da həkimlərdən eyni cavabı alırlar – "Sənin ürəyində heç nə yoxdur". Şikayət davam etdiyi üçün bu cavab xəstələri əksər hallarda qane etmir və onlar biz psixiatrların yanına, demək olar ki, bütün tibbi müayinələrdən keçmiş və ümidlərini itirmiş vəziyyətdə gəlirlər.

Tibbin müasir inkişaf səviyyəsinə gəlib çatmasına baxmayaraq, təəssüflər olsun ki, həyəcan pozuntusu xəstəliyinin yaranma səbəbləri tam aydın deyildir. Bir neçə elmi nəzəriyyə vardır ki, bunlardan ən önəmlisi "serotenin" nəzəriyyəsidir. Yayılmış həyəcan pozuntusu xəstəliyinin yaranma səbəbi kimi məhz beyində sinirlər arasında informasiyanın ötürülməsini təmin edən "xoşbəxtlik hormonu" adlandırılan serotenin maddəsinin miqdarının azalması göstərilir.

Xəstəliyin müalicəsində dərman və psixoterapiya metodlarından istifadə olunur. Xəstəyə müalicədən əvvəl xüsusi psixoloji testlər tətbiq olunaraq xəstəliyin dərəcəsi müəyyən edilir. Yüngül dərəcəli həyəcan pozuntusu olan xəstələrdə bəzən dərmansız, yalnız psixoterapiya ilə də keçinmək mümkündür. Psixoterapiya metodu olaraq koqnitiv davranış terapiyası seçilməlidir. Xəstəliyi daha şiddətli keçirən xəstələrdə isə dərman və psixoterapiya birlikdə istifadə olunmalıdır. Dərman terapiyası olaraq antidepressantlardan istifadə edərək tam sağalmaya nail olmağa çalışılmalıdır [7].

Həyəcanlılıq təşviş pozuntulara da səbəb olur. Qorxu hissləri ilə müşayiət olunan müxtəlif növ nevrozlar təşviş pozuntuları adlanır. Əsəb xəstəlikləri arasında yayılmasına görə təşviş pozuntuları yalnız depressiyadan geri qalır. Müxtəlif təşviş pozuntularından əhalinin 15–20 faizi əziyyət çəkir. Qorxu və təşviş insanın təbii emosional reaksiyalarıdır. İnsanın həyatına təhlükə yarandıqda bu hisslər hər bir fərddə meydana çıxır və onun fəaliyyətini təhlükədən qurtarmağa yönəldir. Təşviş pozuntularının müxtəlif növləri vardır:

1) *Ümumi təşviş pozuntusu* – müxtəlif səbəblər üzündən baş verən həddən artıq güclü, çətin nəzarət olunan və çox vaxt əsassız narahatlıq hissi şəklində göstərilir. Bu pozuntudan əziyyət çəkən insanlar hər gün gərginlik içində olurlar. Məsələn: öz səhhəti və yaxınlarının sağlamlığı ilə bağlı qorxu hissi, maddi vəziyyətlə əlaqədar daimi həyəcan. Əhalinin 2–3 faizi ümumi təşviş pozuntusundan əziyyət çəkir. Kişilərə nisbətən qadınlarda bu xəstəliyə 2 dəfə çox rast gəlinir.

2) *Aqrofobiya* zamanı təşviş tutmaları bu hallarda qeyd olunur; kütlə içində, yaxud çoxlu adam yığışmış yerdə. Aqrofobiyalı insanlar qəfil vahimə tutmaları keçirə bilərlər. Onların təşvişi və həyəcanı camaatın arasında rüsvay olmaq, aciz görünmək qorxusu ilə də bağlıdır.

3) *Vahimə pozuntusundan* əziyyət çəkən insanları panik hücumlar narahat edir. Panik hücum – qorxu və təşviş hissinin şiddətli tutmasıdır. Panik hücumlar zamanı daha çox

rast gəlinən simptomlar aşağıdakılardır:

Başgicəllənmə, huşunu itirmək, ölüm qorxusu, güclü ürəkdöyünmə, təngnəfəslik, boğulma, tərləmə, döş qəfəsində ağrı, titrəmə, ürəkbulanma, əllərdə və ayaqlarda keyimə.

## NƏTİCƏ

Məqalədə xüsusilə son dövrlərdə iş imkanlarının azalması, pandemiya səbəbi ilə evə qapanmaların olması ilə artan həyəcan və aqressiya haqqında danışılır. Həyəcan və aqressiyanın psixoloji xarakteristikası verilmiş, onların səbəb ola biləcəyi xəstəliklər, artmasına səbəb olan amillər, bunları araşdıran tədqiqatçıların gəldiyi nəticələr göstərilmişdir. Həyəcan və aqressiya səviyyəsinin normaya salınması insanın fiziki və zehni sağlamlığı üçün olduqca vacibdir. Xüsusilə pandemiya dövründə bir çox qısıtlamalar səbəbi ilə bir çox insan bu problemlərlə üzləşirlər. Bu səbəbdən də gün ərzində müəyyən müddət təmiz havada vaxt keçirmək, fiziki hərəkətdə olmaq, gündəlik az da olsa idman etmək həm zehni, həm də fiziki olaraq dincliyi təmin etmək üçün tövsiyə olunur. Lakin əgər vəziyyət ciddidirsə, güclü həyəcan və aqressiyadan əziyyət çəkilirsə, vaxt itirmədən mütəxəssisə baş vurmaq lazımdır.

**Ədəbiyyat:**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-çap, 2002, s. 391
2. Hüseynova G.Q., Musayeva T.M. Emosiya və motivasiyanın psixologiyası. Metodik vəsait. Bakı 2004, s. 427
3. N.V.İsmayılov, F.N.İsmayılov. Tibbi psixologiya və psixoterapiya. Bakı – 2008, s. 415
4. OSHO Emosiyalar. Bakı, 2017, s. 152
5. https://www.psikolojidenoku.com/heyecan-nedir-ve-duygularimiz/
6. https://www.healthline.com/health/anxiety#_noHeaderPrefixedContent
7. http://dushunce.az/entries/kliniki-psixologiya/h%C9%99y%C9%99can-pozuntusu

# PSYCHOLOGICAL CHARACTERISTICS OF AGGRESSION AND ANXIETY AND THEIR STUDY

**Amrah Gasimli**

**ABSTRACT**

The proper functioning of human beings depends on many factors. The most important of these is the health of the individual. Emotional health is as deadly as physical health. Because emotions play such a large role in human power, many well-known studies and theories have been developed. Aggression and high levels can lead to many developments that interfere with normal functioning in humans. Today, a person develops from society due to psychological problems due to aggression and the situation created by the high situation, which in turn leads to greater development. Based on the above, it is important to study these two psychological phenomena.

Rəyçi R.H.Qədirova, psixologiya elmləri doktoru, professor.
Məqalə redaksiyaya 30 mart 2021-ci ildə daxil olmuşdur.

UOT 316.4

# MİLLİLİK VƏ QLOBALLAŞMA

**İradə Teymurova**
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu*
*Bakı ş., H.Cavid pr.,115, indeks AZ1073,*
*E-mail: irade.teymurrova@gmail.com*

***Açar sözlər:*** *milli-mənəvi dəyərlər, milli özünüdərk, vətənpərvərlik, gənclər, təhsil, tərbiyə, millət, qloballaşma, inteqrasiya, transformasiya*
***Keywords:*** *national-moral values, national self-consciousness, patriotism, youth, education, upbringing, nation, globalism, inteqration, transformation*

## GİRİŞ

Tərbiyənin tarixi insanın tarixi ilə eyni olsa da həmişə aktuallığını saxlamışdır. Yaşlı nəsillər öz imkanları daxilində olan bütün maddi və mənəvi dəyərləri özlərindən sonra gələn nəsillərə əmanət etmişlər. Onlar özlərindən övladlarına, bütövlükdə millətə, xalqa miras qoyduqları nə varsa, onların hamısının qorunub saxlanmasını, zənginləşdirilməsini, səmərəli istifadə edilməsini diləmişlər.

Bu yolla illər ötdükcə millətlərin, xalqların maddi və mənəvi dəyərləri arasıkəsilmədən zənginləşmiş, əvəzsiz xəzinəyə çevrilmişdir. Belə zəngin xəzinələrdən biri Azərbaycan xalqına məxsusdur.

Tədqiqatçılar bu xəzinəni milli-mənəvi dəyərlər adlandırmaqda haqlıdırlar. Çünki mənəvi zənginliyin yaranmasında Azərbaycanın köklü etnoslarının hamısının payı var və onları özününkü sayır. Bu zənginlikdə eyni zamanda Azərbaycan vətəndaşı olan, yüz illər boyu azərbaycanlılarla birgə yaşayıb-yaradan bütün xalqların payı var. Odur ki bu gün Azərbaycan xalqının mənəvi xəzinəsindən hamının bərabər ölçüdə yararlanmağa, özlərindən sonra gələn milli-mənəvi dəyərlərdən ləyaqətlə istifadə etmələrini məsləhət görməyə haqqı var.

Heç bir nəsil ona miras qalmış milli-mənəvi dəyərlərlə kifayətlənə bilməz. Çünki dövr dəyişdikcə insanın tələbatı, imkanları və sahib olduğu dəyərlərin həcmi, keyfiyyəti, dəyərlik səviyyəsi və digər göstəriciləri də dəyişikliyə məruz qalır. Ona görə də dövr dəyişdikcə milli-mənəvi dəyərlər xəzinəsindən nələrin dəyişik-

liklərə uğrayacağını, hansı yeni dəyərlərin meydana gələcəyini daha aydın bilmək, həyatla daim ayaqlaşmaq lazım gəlir.

Milli-mənəvi dəyərlər donub qalan nemət deyil. O istifadə olunduqca öz əhəmiyyətini, tərbiyəvi təsir gücünü üzə çıxarır. Milli-mənəvi dəyərlərin faydalılıq ölçüsü insanın inkişafına göstərdiyi təsirlə müəyyənləşir.

Gənc nəslin tərbiyəsi və bu prosesdə milli-mənəvi dəyərlərdən istifadə metodikası indiki şəraitdə xüsusilə aktuallaşmışdır.

Problemi aktuallaşdıran faktlar bunlardır:

1. Azərbaycan suverenliyini bərpa edəndən sonra (1991-ci ildən bəri) ictimai-siyasi sistemini tamam dəyişdirmişdir: sosialist sistemindən kapitalist sistemi (bazar iqtisadiyyatı) yoluna keçmişdir. Bu fakt münasibətlər sisteminin köklü surətdə yeniləşdirilməsini tələb edir.

2. Azərbaycan bir sıra dünya birliklərinin, o cümlədən BMT-nin, Avropa Şrrasının, ATƏT-in, MDB-nin üzvüdür və çoxsaylı konvensiyalara qoşulmuşdur. Ölkələrarası çoxtərəfli əlaqələr genişlənmiş, iştirakçı dövlətlərin hamısı üçün vacib olan tələblərin, öhdəliklərin yerinə yetirilməsi borcu mövcuddur. Dövlətlərarası, xalqlar və millətlərarası qarşılıqlı əlaqələrin yeni tələblər əsasında qurulmasına başlanmışdır.

3. XX əsrin sonlarında başlayan qloballaşma prosesi Azərbaycanı da öz əhatəsinə cəlb etmişdir. İqtisadiyyatda, ticarətdə, elm və texnika sahəsində, mütəxəssis hazırlanmasında və mübadiləsində, ümumiyyətlə, insan və dövlət həyatının bütün sahələrində inteqrasiya prosesi gedir.

Şərq-Qərb enerji dəhlizi, tarixi İpək Yolu Azərbaycandan keçir.

4. Elm, texnika, texnologiya, mütərəqqi texnologiyalar sürətlə inkişaf edir, elektron sistemləri dünya mədəniyyətini birləşdirir. Dünya üzrə informasiyalar işıq sürətilə bütün yaşayış məntəqələrinə çatır.

Bunların hamısı birlikdə tamamilə yeni milli-mənəvi dəyər ölçüsü yaratmağı, tərbiyə, təhsil işində köklü islahatlara başlanmasını, nəticə etibarilə rəqabətədözümlü, ölkəsini yüksək səviyyədə təqdim etmək mədəniyyətinə sahib olan, birgəyaşayış qaydalarını mükəmməl bilən, müxtəlif millətlərin və xalqların nümayəndələri ilə gözəl ünsiyyət qurmağı bacaran, özünüinkişafı təmin edən azərbaycanlıların formalaşdırılmasını dövrün aktual vəzifəsinə çevirir [2, s.3–4].

## Milli ruh və vətəndaş tərbiyəsi

Milli-mənəvi dəyərlərin qorunması, inkişafı və böyüyən nəsillərə aşılanması problemi həmişə aktual olmuşdur. Respublikamız müstəqillik

qazanandan sonra problemin aktuallığı xeyli artmışdır.

Təsadüfi deyildir ki, Heydər Əliyev dövlətçilik hissi ilə bərabər, milli-mənəvi dəyərlərə bağlılığı da azərbaycançılıq məfkurəsinin mühüm tərkib hissəsi sayırdı. Professor R.Mehdiyev yazır: "Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcəkdir". Bu ideya dövlətçilik və vətənpərvərlik hissinin gənc nəslə çatdırılmasında xüsusi əhəmiyyətə malikdir [3, s.393].

Ümummilli liderimiz H.Ə.Əliyev bu məsələ haqqında gənclərin I respublika forumunda demişdir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" [1, s.20].

Respublikanın gələcəyi gənclərdən asılı olduğu üçün təhsil sahəsində aparılan islahat milli ənənələrimizə, milli dəyərlərimizə arxalanaraq soykökünə bağlı şəxsiyyətin formalaşmasına yönəlməlidir. Gəncləri türk-oğuz, şərq-islam mədəniyyətinin nailiyyətlərindən yaranan Azərbaycan milli-mənəvi dəyərləri ruhunda tərbiyə etmək islahatın əsas məqsədlərindəndir [2, s.9].

Milli-mənəvi tərbiyə problemi geniş, çoxsahəli və məzmunca rəngarəngdir. Millətin yaranması, inkişafı haqqında müxtəlif konsepsiyalar mövcuddur. Hazırda Müəmmər Qəzafinin ideyalarına daha çox istinad olunur. O, milli amili bəşər tarixinin hərəkətverici qüvvəsi hesab edir. Milli birliyi yaradan əsas amili milli özünüdərk adlandırır.

Milli özünüdərki itirmiş millətlər dağılmağa məruz qalır. Müxtəlif baxışlara, əqidələrə, inamlara, inanclara baxmayaraq milli özünüdərkin olması dövlətin qorunmasına kömək edir. Dövlət isə müxtəlif amillərin təsiri altında yaranan siyasi qurumdur və bu amillərin ən birincisi və başlıcası milli özünüdərkdir.

İctimai amil milli özünüdərkin əsas və sabit amilidir. Belə ki, ictimai amil kimi milli amil tarixin həqiqi və daimi hərəkətverici qüvvəsidir. Ona görə də diqqəti sosial gerçəklik üzərində mərkəzləşdirmək, normal inkişaf etmiş insan tərbiyəsi naminə ilk növbədə ailəyə, sonra ailədən kənarda insana ictimai tərbiyə verən təhsilə qayğı göstərmək lazımdır [2, s.11].

Müstəqillik dövründə mənəvi istehsalın başlıca məqsədi öz Vətənini

sevən, milli şüura, milli ləyaqət hissinə malik olan gənclər yetişdirməkdən ibarətdir və sözsüz gənclərin mənəviyyatının formalaşmasında ən əsas yerlərdən birini təhsil tutur.

Hazırda müstəqil Azərbaycan Respublikasının qarşısında duran ən böyük problemlərdən biri dövrün tələblərinə cavab verən müasir təhsil sisteminin qurulmasıdır.

Müstəqil Azərbaycanda formalaşan yeni təhsil sistemi özünün maddi-texniki bazasına, əhatəsinə, münbit şəraitinə və potensial imkanlarına uyğun qurulması ilə səciyyələnir. Təhsil sistemi, proses, nəticə olmaqla yanaşı, həm də bir dəyərdir. Onun formalaşmasında istifadə olunacaq zəruri resursları və texnologiyaları olduğu kimi hardansa götürməməli, heç bir ölkənin təhsil sistemini Azərbaycanda qurmağa çalışmamalıyıq. Onu mövcud şəraiti, milli-mənəvi dəyərləri nəzərə almaqla yaratmalı, cəmiyyətin imkan və tələblərinə uyğun qurmalıyıq.

Milli zəminə söykənərək ümumbəşəri dəyərlərdən bəhrələnmək də prioritet istiqamətlərdən biri olaraq islahatın aparılması işinin əsasını təşkil edir. İşin gedişi prosesində, təəssüflər olsun ki, birtərəfli yanaşmaların meydana çıxdığı da müşahidə olunur. Bəziləri ümumbəşəri dəyərləri ali məqsəd kimi qəbul edir, təhsildə yalnız ona nail olmağı bu günün nailiyyət səviyyəsi olaraq dəyərləndirirlər. Bəziləri isə milli dəyərlərin formalaşması ilə qane olmağı üstün hesab edirlər. Qloballaşma, dünyanın bugünkü tələbi, bu iki cəhəti eyni səviyyədə dəyərləndirməyi, onların hər ikisini təhsilin fövqünə qaldırmağı vacib məsələ kimi qarşıya qoyur.

Tədqiqatlar göstərir ki, dünyada gedən qlobal dəyişikliklər və sabitliyin qorunmasına yönəldilmiş müxtəlif tədbirlər müasir dövrdə ayrı-ayrı ölkələri, gənc nəsli və ümumilikdə insanları yeni texnologiyalarda, mühitin ekoloji vəziyyətində baş verə biləcək müxtəlif təsadüfi hadisələrdən və qeyri-müəyyənlikdən tamamilə təcrid edə bilməmişdir. Qloballaşma şəraitində bu vəzifələri yalnız sistemli şəkildə qurulmuş və elmi cəhətdən əsaslandırılmış təhsil sistemi yerinə yetirə bilər. Ona görə də müasir dövrdə pedaqoji proses elə qurulmalıdır ki, təhsil sistemində gedən islahatlar dövlət siyasətinə və tədris sisteminin modernləşdirilməsinin tələblərinə cavab versin. Məlumdur ki, yüksək təhsilli, rəqabətədavamlı insan dövlətin və millətin tükənməz sərvəti, dayağıdır. Təhsili müasir tələblər səviyyəsində qurulmuş dövlət xüsusi statusa malik olmaqdan başqa, qabaqcıl elmi mövqeyə malik, bütün sahələrdə inkişaf edən və asılı olmayan bir dövlət kimi

çıxış edir. Bunları nəzərə alaraq dövlət, səmərəli təlim-tərbiyə prosesinin qurulmasında xüsusi rol oynayan, bütövlükdə elmi-metodiki cəhətdən təhsil sistemini qidalandıran və onun optimal fəaliyyətinin qarantı olan pedaqoji-psixoloji elmlərin inkişafına hərtərəfli qayğı göstərilməlidir.

Elmi-texniki tərəqqi ölkədə inkişafın və insanların həyat tərzinin yüksəldilməsində mühüm rol oynasa da, təhsil sisteminin yeniləşməsində əsas yeri pedaqogika, psixologiya elmləri tutur. Ona görə də birinci növbədə, təhsil sistemi qarşısında duran qlobal məsələlərin həlli üçün, milli-mənəvi dəyərlər nəzərə alınaraq pedaqoqika, psixologiya elmlərinin inkişafına xüsusi qayğı göstərilməli, təhsilin maddi-texniki bazası yüksəldilməli, yeni texnologiyaların, innovasiyaların, yeni pedaqoji yanaşmaların təhsil sisteminə gətirilməsi təmin olunmalıdır [4, s.14–16].

Müasir dövrdə şəxsiyyətyönümlü təhsilin qurulmasına istiqamət götürüldüyündən, müasir cəmiyyətin, suveren Azərbaycan Respublikasının təhsil sistemi azad bazar iqtisadiyyatının tələblərinə cavab verən şəxsiyyətin rəqabətədözümlü, kamil insanın formalaşdırılmasını ön plana çəkməlidir. Vaxtilə fransız mütəfəkkiri Dyuklonun öz ana dili ilə bağlı dediyi “Oğluma dil öyrədin. Qoy bu, ingilis, yunan, latın dilləri olsun. Amma bununla belə o, əsl fransız olmalıdır” fikri bu gün bizə də aid olmalıdır [4, s.282].

Ümummilli liderimiz H.Ə.Əliyev bu məsələ haqqında gənclərin I respublika forumunda demişdir: “Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Xatirimdədir, 70-ci illərdə mən bir neçə dəfə çox narahatçılıqla göstərişlər verdim ki, rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatına çox yer verilsin. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək; onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır.

Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun” [1, s.22].

Bir dəfə Oksford Universitetinin professorundan soruşurlar: “Oksford

tələbələrə nə verir?" Cavab belə olur: "Oksford tələbələrə əsl ingilis centlemeni necə olmalıdırsa, onu öyrədir". Qoy Azərbaycan təhsil sistemində də əsl azərbaycanlı necə olmalıdırsa, gənc nəsil məhz onu öyrənsin, əsl Azərbaycan vətəndaşının formalaşdırılması təhsil sistemi tərəfindən təmin edilsin [4, s.282].

## NƏTİCƏ

Bu gün milli özünüdərk problemi həm də ona görə aktualdır ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqımız öz milli-mənəvi köklərinə qayıtmağa, öz milli mentalitetinə adekvat olan həyat tərzi qurmağa çalışır. Lakin buna nail olmaq üçün, ilk növbədə, əsrlərdən və nəsillərdən bizə miras qalmış milli sərvətlərimizi qoruyub saxlamağı və onları dəyərləndirməyi bacarmalıyıq. Milli varlığımız üçün təhlükələr isə çoxdur. Ona görə də biz bu sahədəki problemləri üzə çıxarmalı və çıxış yollarını göstərməyə çalışmalıyıq.

Qloballaşma dünya miqyasında xalqlar arasında fərqlərin aradan götürülməsini stimullaşdırır. Lakin başqası kimi olmaq üçün ilk növbədə özün kimi olmaqdan imtina etməlisən. Ona görə də, ümumbəşəri dəyərləri daha rahat şəkildə ön plana çəkməyin ən asan yolu milli-mənəvi dəyərlərin arxa plana keçirilməsi hesab edilir. Lakin bu, səhv təsəvvürdür. Ən doğru yol-yeni ümumbəşəri mədəniyyətin milli mədəniyyətlərin fövqündə deyil, onunla sintez halında formalaşmasıdır. Bu baxımdan, Heydər Əliyevin milli ideologiyamızın başlıca prinsipi kimi irəli sürdüyü "milliliklə ümumbəşəriliyin vəhdəti" ideyası əsas götürülməlidir.

Qloballaşma, inteqrasiya zəruri, eyni zamanda qaçılmazdır. Bundan qaçmaq və ya qaçmağa cəhd etmək özünüintihara bərabərdir. Eyni zamanda tamamilə avropalılaşmaq, qərbə inteqrasiya olunmaq da zərərlidir. Ən azı ona görə ki, biz tamamilə Avropalı ola bilmərik. Bizim kökümüz, qan yaddaşımız, adət-ənənələrimiz Şərqlə bağlıdır. Bunları isə inqilabi yolla dəyişdirmək, modernləşdirmək mümkünsüzdür. Əgər dəyişdirilərsə, biz özümüzü, tariximizi, bununla da gələcəyimizi itirmiş olarıq. Deməli, biz müasirləşməli, qloballaşma və inteqrasiyaya doğru özümüz kimi, öz milli dəyərləri, milli xarakteri, milli adət-ənənələri olan bir xalq kimi getməliyik. Bunun yolu isə mədəni səviyyənin yüksəldilməsi, təhsilin hər iki istiqamətdə – qloballaşma və milliliyə istinad edən, onu təmin edən zəmin üzərində qurulmasını təmin etməliyik.

**Ədəbiyyat:**


1. Əliyev H.Ə. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Azərbaycan Respublikası gənclərinin birinci forumu. Bakı, 1996.
2. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı, 2006.
3. Xəlilov S.S. Mənəviyyat fəlsəfəsi. Bakı, 2007.
4. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, 2007.
5. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003.


## NATIONALISM AND GLOBALISM

**Irada Teymurova**

**ABSTRACT**


At a time when the Republic of Azerbaijan is building an independent, democratic, legal, civil and open society, the protection of national and moral values and inculcation in young people are actual. The return to national ancestry, national self-awareness must begin with the upbringing of children in a family and continue in educational institutions. Like all moral qualities, a high level of civic awareness emerges as a result of upbringing, training and education. The problem of cultivating a comprehensively developed personality is first of all connected with the education of real citizens.

Another aspect is globalization, which is the complete opposite of nationalism. Globalization and inteqration are both necessary and inevitable. So, we must modernize and move towards globalization and inteqration as a nation with its own national values, national character and national traditions.



Rəyçi Ə.T.Baxşəliyev, psixologiya elmləri doktoru, professor.

Məqalə redaksiyaya 31 mart 2021-ci ildə daxil olmuşdur.

UOT 159.923

# MÜHARİBƏ SOSİAL-PSİXOLOJİ HADİSƏ KİMİ

**Zülqaydə Mollayeva**

*Xəzər Universiteti*
*Məhsəti küçəsi 41, indeks: 096*
*Email: zulqaydamollayeva@gmail.com*

***Açar sözlər:*** *müharibə, millətlərarası münaqişələr, döyüş, zorakılıq, təcavüz*
***Keywords:*** *war, international conflicts, battle, violence, aggression*

## GİRİŞ

Bəşəriyyət tarixini müharibə və sülh dövrlərinin bir-birini əvəz etməsi, müxtəlif tayfalar, bəyliklər, dövlətlər arasında toqquşmalar prosesi kimi başa düşmək olar. Sülhün əsas səbəbi müəyyən bir cəmiyyətdə bu sistemlə ahəngdar münasibətlərə girməli və bir-biri ilə uyğunlaşmalı olan vahid, möhkəm qurulmuş əsas dəyərlər sisteminin və müvafiq davranış normalarının mövcudluğudur. Belə birlik zəiflədikdə beynəlxalq və ya vətəndaş müharibəsi üçün şərait yaranır.

Terror aktları, millətlərarası münaqişələr, silahlı toqquşmalar, zorakılıq və təcavüz XXI əsrdə də müzakirə olunan əsas mövzular olaraq qalır. Ölkədə sülhün təmin edilməsi, sabitliyin bərpası üçün nəzərdə tutulmuş aktorlardan biri də siyasi sistemdən, dövlətin ümumi hərbi mədəniyyətindən və doktrinasından asılı olaraq müəyyən tarixi inkişafın məhsulu olan ordudur. Struktur funksionalizm nöqteyi-nəzərindən, sosial sistem, bu halda ordu, həm sistemin hissələrinin qarşılıqlı əlaqəsini, həm də sonrakı inteqrasiyasını təmin edən norma və dəyərlər nümunələri ilə nizamlanmış bir bütövlükdə təşkil olunur. O, müəyyən funksiyaları yerinə yetirir, öz alt sistemlərinə və sosial institutlarına – bu sistemin rol və normalarının icraçılarına – hərbi personala malikdir. Məhz onlar sosial sistemin tarazlığını qorumaq, həmçinin öz dövlətlərinin dinc mövcudluğunu təmin etmək üçün bu təşkilatın optimal formalarını axtarmalı olurlar.

Son bir neçə əsrdə baş verən böyük müharibələr insanlara əhəmiyyətli psixoloji və psixiatrik təsirlər göstərmişdir. Müharibələr zamanı bəzi tibbi izahı olmayan əlamət və

simptomların ortaya çıxdığı qeyd edilmişdir. Müəyyən bir diaqnostik nəticə kimi təsnif etmək çətin olan bu pozuntular müharibə sindromları və ya müharibə stress reaksiyaları adlanır. Bu simptomların müalicə üsullarında evə göndərmə, spirtli içkilərdən istifadəyə icazə vermək, ciddi nizam-intizamı yumşaltmaq, hərbi geyimi dəyişmək kimi təcrübələr mövcud olsa da, sonradan dərman müalicəsi və psixoterapiya tətbiq edilib.

Birinci Dünya müharibəsində müharibə şoku daha çox yayılmış və populyar diaqnoz kimi istifadə edilməyə başlanılmışdı. Hərəkətin məhdudlaşdırılması və yorğunluq kimi əlamətlərin üstünlük təşkil etdiyi bu mənzərənin daha əvvəl təzyiq və ya zərbə təsirindən ötəri nevropsixiatrik spektr olduğu düşünülürdü. Bu qrupda beyin sarsıntısı, çaşqınlıq halları, isterik nevrozlar, nevrasteniya, yorğunluq və pisləşmə kimi vəziyyətlər təsvir edilmişdir. Ancaq partlayışa məruz qalmayan əsgərlərdə də oxşar vəziyyətlərin görülməsi çaşqınlığa səbəb oldu. 1916-cı ildə baş vermiş müharibə ilə İngiltərə ordusunda müharibə şoku epidemiya halına gəldi. Ona görə də ciddi tədbirlər görülməsi və tez müalicə üsullarını tapmaq lazım idi. Bu məqsədlə dörd tibbi xidmət bölməsinin yaradılması qərara alınmışdır. Müharibə şokuna ilk yanaşmalar beyin travması nəticəsində yaranan onurğa beyni zədələri və görmə sisteminin pozğunluqları haqqında məlumatlar toplanmışdır. Daha sonra simptomların ilkin səbəbinin fərdi struktur xüsusiyyətləri olduğu və xarici səbəblərin çox da əhəmiyyətli olmadığı qəbul edildi. Müharibə şoku diaqnozu qoyulan əsgərlərin 80%-də nevrasteniya müşahidə edilərkən, 10%-də yeriyə bilməmə, yorğunluq kimi əlamətlərlə konversiya cədvəlləri müşahidə olunub. Lakin onların yalnız 5%-də beyin silkələnməsi müəyyən edilib. Bu vəziyyətin təkrarlanmaması üçün cəbhəçilərə spirtli içki qəbul etməyə icazə verilib. Müəyyən edilmişdir ki, bu müraciətdən sonra bildirilən hallar qismən azalmışdır. Müharibə davam etdikcə müharibə şoku halları azalmış və 3963 müalicə olunmuş əsgər öz qoşunlarına qaytarılmışdır. Müharibə şokunun 10%-də bir dəfə təkrarlandığı müşahidə edilmişdir. Passchendaele döyüşündə ilk dəfə olaraq müharibə şoku tibbi baxımdan effektiv şəkildə idarə olundu. Bu tibbi təcrübənin dəyişdirilməsinə töhfə verən həyati komponentlər qışa dözmək qabiliyyətini yaxşılaşdırmaq (normal reaksiya) və əzablardan hər hansı ikinci qazancı minimuma endirmək idi. [3, s. 147].

Gələcəkdə müharibə şokunun qarşısını almaq üçün 1920-ci ildə "Southborough" Komitəsi adlı bir

komitə yaradıldı. Bu komitənin işi nəticəsində müharibə şoku yenidən təyin olundu. Simptomların vaxtaşırı nisbətən əhəmiyyətsiz səbəblərdən qaynaqlandığı vurğulanmış və nevropatik meyildən bəhs edilmişdir. Daha sonra müharibə şokunun xroniki formasına diqqət yetirilmişdir. Komitə belə qənaətə gəlib ki, çağırışçıların psixi vəziyyətinin daha yaxşı müayinəsi döyüş şoku hallarını azaldacaq. Hərbi məmurlar qeyd ediblər ki, həkimlər əsgərləri təsadüfi şəkildə psixi müayinədən keçiriblər.

Müharibə ilə bağlı müxtəlif yanaşmaları təhlil edərkən Hollandiya etnoloqu və sosioloqu Rudolf Steinmetzerin silahlı münaqişələrin səbəbi haqqındakı fikirlərinə nəzər yetirmək yerinə düşər. "Müharibə fəlsəfəsi" əsərində o, ardıcıl olaraq insanla heyvan arasındakı əsas fərqin "müharibə hədiyyəsi" olduğunu və bütün bəşər mədəniyyətinin inkişafı üçün məhz ona borclu olduğunu müdafiə edirdi. Müharibə, onun fikrincə, cəmiyyətin həyatında ali hakim və islahatçı rolunu oynayan dövlətlərarası rəqabət növüdür. Müharibənin bütün mənfi cəhətləri onun ən mühüm funksiyası – dövlətin mövcudluğunu təmin etmək kimi tamamilə əhatə olunur. [5, s. 120].

Müharibədə olan insanın sosial-psixoloji problemləri dünya müharibələri zamanı da alimləri narahat edirdi. Beləliklə, Birinci Dünya müharibəsi illərində əsgərlərdə böyük çaplı artilleriya partlayışlarına psixi reaksiyalar nəticəsində yaranan nevroloji pozuntular "partlayıcı" və ya "artilleriya" şoku sindromu adlanırdı. Rus ordusunda hava sarsıntılarının psixi nəticələrinə çox diqqət yetirildi.

İkinci Dünya müharibəsi bütöv xalqların əsarətə düşməsi, faşist terroru, dövlətlərin azadlığı və müstəqilliyi uğrunda mübarizə, qəhrəmanlıqlar, misilsiz qurbanlar dövrü kimi tarixi yaddaşa daxil olmuş bütöv bir dövrdür. Böyük Vətən müharibəsinin psixi nəticələrinə həsr olunmuş yerli müəlliflərin tədqiqatlarında əsas diqqət döyüş xəsarətləri və yaralarının nəticələrinə (ilk növbədə beyin), yorğunluq, yoluxucu xəstəliklərin və insanların sinir sisteminə digər zərərli təsirlərə verilir.

Elmi ictimaiyyətin müharibənin psixoloji nəticələrinə marağının növbəti dalğası Vyetnam hadisələrindən sonra müşahidə olunur. Aparılan tədqiqatlara görə, bu müharibədə iştirak etmiş bütün veteranların 30%-i müharibədən sonrakı həyatlarında posttravmatik stress reaksiyalarının təzahürlərini açıq şəkildə ifadə etmişlər. Statistikaya görə, ABŞ-ın ümumi döyüş itkiləri 47.434 nəfər təşkil edib, 303.000 hərbi qulluqçu yaralanıb, onlardan 153.303-ü

xəstəxanaya yerləşdirilib. ABŞ veteranlarının ümumi strukturunda Vyetnam müharibəsi iştirakçıları 29% təşkil edir.

Dünya təcrübəsi açıq şəkildə göstərir ki, məğlubedilməz müharibə veteranları yalnız cəmiyyət onları buna sövq etdikdə, onları əqli və sosial cəhətdən aşağı insanlar kimi qələmə verdikdə, uğrunda vuruşduqları idealları dəyərsizləşdirdikdə sosial dağıdıcı meyllər nümayiş etdirirlər. Veteranlar elə bir qüvvədir ki, kənardan müəyyən cəhdlərlə dağıdıcı ola bilər, amma onun təbii rolu dövlətçiliyin yaradılması və möhkəmlənməsidir.

İki sistemi – sosializm və kapitalizmi bir-birindən ayıran "dəmir pərdə" çoxdan yıxılıb. Onların yerini millətlərarası yeni hərbi münaqişələr, sülhməramlı əməliyyatlar, silahlı müdaxilələr tutur, döyüş meydanında özünü, iradəsini, fiziki və mənəvi imkanlarını sınamış insanlar bizim yanımızda yaşamaqda davam edirlər. Mülki həyata qayıtdıqdan sonra, vətəndaş cəmiyyətinə adaptasiya və inteqrasiya dövründə onları, bəlkə də, daha böyük sınaqlar gözləyir. Bir tərəfdən, müxtəlif sindromlar şəklində "müharibə hədiyyəsi"nin nəticələri onların həyatının ayrılmaz yoldaşlarına çevriləcəkdir.

2020-ci il 27 sentyabrın tarixində başlayan və cəmi 44 gün davam edən və Vətən müharibəsi adlandırılan Birinci Qarabağ müharibəsi 30 ildir davam edən işğala son qoydu. Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan zəfər tarixə öz adını silinməz izlərlə yazdırdı.

Müharibənin ilk günü İlham Əliyev açıqlama verdi ki, Ermənistan ordusunun silahlı qüvvələri mülki əhalinin yaşayış məntəqələrini və Azərbaycanın hərbi mövqelərini atəşə tutur, həm sakinlər, həm də hərbi qulluqçulardan ölənlər və yaralananlar var. Azərbaycan silahlı qüvvələri əks hücumla düşmənin hərbi mövqelərini atəşə tutub, sarsıdıcı zərbələr endirib, düşmən ordusunun çox sayda həm hərbi texnikasını, həm də canlı qüvvəsini məhv edib. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və bitəcək. Biz düzgün yoldayıq. Bizim səbəbimiz haqlıdır. Biz qalib gələcəyik! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! – dövlət başçısının xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlını şanlı Qələbəyə doğru aparan əsas şüara çevrildi. [2].

Uğurlu əks-hücum əməliyyatının ilk saatlarından düşmənin xüsusilə möhkəmləndirilmiş ön müdafiə xəttini yarıb keçən Azərbaycan ordusu Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Horadiz

və Qərvənd kəndlərini, eləcə də mühüm Ağdərə rayonundakı strateji yüksəkliklər və Murovdağ silsiləsini işğaldan azad etdi.

2020-ci il 3 oktyabr tarixində Azərbaycan ordusu Madagizi işğaldan azad etdi və kəndin tarixi adı yenidən bərpa edilərək Suqovuşan adlandırıldı.

2020-ci il 4 oktyabr tarixində Cəbrayıl, 9 oktyabr tarixində Hadrut düşmən işğalından azad edildi. 2020-ci il 17 oktyabr tarixində Azərbaycanın üç rəngli bayrağı Füzulidə dalğalandırıldı. 2020-ci il oktyabrın 18-də Azərbaycan bayrağı Xudafərin körpüsündə göylərə qaldırıldı. 2020-ci il 20 oktyabr tarixində Zəngilan şəhəri düşmən işğalından azad olundu.

2020-ci il 22 oktyabr tarixində Zəngilan rayonunun Ağbənd qəsəbəsinin düşmən tapdağından azad edilməsi nəticəsində Azərbaycan İranla dövlət sərhədinə yenidən nəzarətə sahib oldu.

2020-ci il 25–26 oktyabr tarixində Azərbaycan ordusu tərəfindən Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndi və Qubadlı şəhəri düşmən işğalından azad edildi. Onu da qeyd etməliyik ki, bu əməliyyatın böyük nəticələrindən biri də Azərbaycan ordusu tərəfindən üstünlüyün qazanılması oldu. Belə ki, Ermənistanı Dağlıq Qarabağdakı separatçılarla əlaqələndirən əsas magistral yol Azərbaycan tərəfindən nəzarətə götürüldü.

2020-ci il 28 oktyabr tarixindən 7 noyabr tarixinə kimi Azərbaycanın şanlı ordusu 53 kəndi və bir neçə strateji yüksəkliyi düşmən işğalından azad etmiş və növbəti hədəf olaraq qədim tarixə malik olan əzəli Azərbaycan torpağı olan Şuşa şəhərinin düşmən işğalından azad edilməsi idi.

Bu tarix – 8 noyabr tarixi nəinki Azərbaycan tarixinin, həmçinin dünya hərb tarixinin unudulmaz şanlı səhifələrindən birinə çevrildi. Çox çətin hərbi əməliyyat olan Şuşa əməliyyatını qələbə ilə sonlandıran Azərbaycanın qəhrəman ordusu Şuşa şəhərini düşmən işğalından azad etdi. [4, s. 119].

Müharibədə məğlub olan Ermənistan hökuməti 2020-ci il 9 noyabrdan 10 noyabra keçən gecə təslim aktı imzaladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Fedarativ Respublikasının Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanın tərəfindən üçtərəfli bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Bəyanatda qeyd edilirdi ki, Ermənistan 2020-ci il 20 noyabr tarixində Ağdamı, 25 noyabr tarixində Kəlbəcəri və 1 dekabr tarixində Laçın rayonunu Azərbaycan ordusuna təhvil verməlidir. Beləliklə, Azərbaycan

Respublikasının ərazi bütövlüyü bərpa edildi.

Bu qələbə ilə Azərbaycan ordusu öz qəhrəmanlığı, şücaəti ilə müasir hərb tarixində iz qoydu. 44 gün müddətində mürəkkəb relyefdə müasir hərbi silahlardan istifadə etmək qabiliyyətinə sahib olan və sonda qələbə çalan Azərbaycan ordusu böyük əzmkarlıq, yüksək peşəkarlıq göstərdi. Müharibə başladlığı andan etibarən düşmənin cəbhədəki müdafiə xəttini böyük şücaətlə qıran ordumuz sonrakı günlərdə dayanmadan irəlilədi.

Şuşanın azad edilməsi üçün həyata keçirilən əməliyyatdan danışan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa əməliyyatının dünya hərb tarixində böyük yer tutacağını vurğulamışdı. Çünki bu əməliyyatı həyata keçirən qəhrəman döyüşçülər yüngül silahlarla silahlanmış şəkildə, dağlardan, meşələrdən, sıldırım qayalardan keçərək böyük qələbəyə öz imzalarını atıblar.

Azərbaycan ordusunun İkinci Qarabağ müharibəsində yüksək qələbə qazanmasında əsgər və zabitlərin böyük qəhrəmanlığı, vətənpərvərliyi dayanır. Dövlət başçısı İlham Əliyev bu barədə dəfələrlə çıxışlar emiş və təkrar-təkrar vurğulamışdır:

– Bu, planlaşdırılmanın, texniki təchizatın, əməliyyatların düzgün aparılmasının və həyata keçirilməsinin vəhdət təşkil etdiyi yeni müharibə nəslidir, bizim ordumuzun döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığı ilə vəhdət təşkil edir. Halbuki mən artıq bir neçə dəfə demişəm ki, bu qələbə bizim texniki imkanlarımızla deyil, əsgər və zabitlərimiz tərəfindən qazanılıb. Torpaqlarımızı düşməndən azad edərək xalqımıza bu Qələbəni verdilər. Ona görə də bu qələbənin ilk qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və bunu hamı bilməlidir.

2020-ci il 10 dekabr tarixində Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi böyük Qələbəyə həsr edilmiş Qələbə Paradı keçirilmişdir. Keçirilən böyük Paradda qardaş ölkə olan Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan da iştirak etmişdir. İki qardaş ölkə arasında qardaşlığın göstəricisi olaraq İkinci Qarabağ müharibəsində canlarını itirən azərbaycanlı şəhidlərin sayı qədər türk əsgərləri də iştirak etmişdi. Keçirilən Qələbə paradında qalib, müzəffər Azərbaycan silahlı qüvvələrinin şəxsi heyəti, hərbi texnikasının müəyyən hissəsi, həmçinin hərbi qənimətlər və ən əsası Şuşada dalğalanan Qələbə Bayrağı nümayiş etdirilmişdi.

Vətən müharibəsində Azərbaycan xalqının misilsiz qəhrəmanlıqlarını və möhtəşəm tarixi qələbəsini təbliğ etmək, şəhidlərimizin əziz xatirəsini

əbədiləşdirmək məqsədilə Bakıda Vətən müharibəsi xatirə kompleksi və Qələbə Muzeyi yaradılmışdır. Düşmən üzərində qələbənin təbliği məqsədilə Bakıda açılan döyüş kuboku parkı hər bir azərbaycanlıda sonsuz qürur və şərəf hissi oyadır.

Müharibələrdə çalınan böyük qələbələrin əsasında xalq, dövlətin və ordunun bir yumruq şəklində birliyi dayanır. İkinci Qarabağ müharibəsi – Vətən müharibəsi Azərbaycan xalqının əzmkarlığını, gücünü, həmrəyliyini doğma torpaqlarının düşmən tapdağından azad edilməsi zamanı bir daha nümayiş etdirdi. Müharibə müdətində nəiniki Azərbaycanda yaşayan azərbaycanlılar, dünya ölkələrində yaşayan azərbaycanlılar, həmçinin Azərbaycana dəstək olan bir çox xalqlar erməni lobbisinin apardıqları çirkin yalan kampaniyalarına qarşı çıxırdılar. Bu 44 günlük müharibə müddətində həm xalqın, həm dövlətin, həm də ordunun birliyi daha da möhkəmləndi. Azərbaycan xalqı öz etnik, sosial və dini həmrəyliyini bir daha nümayiş etdirdi, həm ön cəbhədə, həm də arxa cəbhədə tam şəkildə birlik yaradıldı.

Dövlət başçısı İlham Əliyevin məharətli siyasəti nəticəsində diplomatik arenada da böyük uğurlar qazanıldı. Belə ki, 44 günlük müharibə müddətində Cənab Prezident İlham Əliyev əlindən gələni etdi, dünyanın bir çox media qurumlarına çox sayda müsahibələr verdi və beynəlxalq ictimaiyyətə Qarabağ münaqişəsinin əsl həqiqətlərini faktlarla əsalandırılmış şəkildə çatdırdı.

Prezident İlham Əliyev çıxışlarının birində demişdir: “Biz sübut etdik ki, böyük xalqıq. Sübut etdik ki, biz həmrəylik, birlik nümayiş etdiririk və bu birlik artıq cəmiyyətdə var idi. Amma bu Qələbədən sonra daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlarımızı dirçəldək, məcburi köçkünlərimizi ən qısa zamanda bu torpaqlara qaytaraq. Gözəl tarixi diyarımız olan Qarabağ bölgəsi sanki yenidən doğulacaq, canlanacaq. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və ən gözəl yerlərdən biri əsl cənnətə çevriləcək. [1, s. 261].

Erməni işğalçıları yenə öz vandallıqları ilə mülki yaşayış yerlərini müxtəlif partlayıcı silahlarla, yaşayış yerlərinə atılması qadağa olunmuş reaktiv raketlərlə partladırdılar. Nəticədə çox sayda mülki şəxs dünyasını dəyişdi və ağır xəsarətlər aldı. Baxmayaraq müharibə cəbhədə aparılırdı, ancaq terrorçu ermənilər bu müharibəni həm də dinc əhalinin yaşadığı ərazilərə sirayət etdirirdi. Nəticədə müharibənin aparıldığı cəhbənin od-alovundan uzaqda olan dinc əhali, xüsusilə uşaqlar müharibənin qurbanına çevrildi və yaxud

canlı şahidi olmağa məcbur oldu. Baş verənlərdən mənəvi ziyan görən uşaqlarda psixoloji travma nəticəsində nitq qabiliyyətini itirmiş, əsəbilik, aqressiv davranış, introversiya, gecələr kabuslar, aktivliyin artması və ya əksinə, azlamsı kimi davaranış dəyişikliyi müşahidə edilmişdir.

## NƏTİCƏ

Müharibə insan ruhunun, insanların psixoloji və fiziki imkanlarının ən çətin sınaqlarından biridir. Bu, hakimiyyət və siyasətçilər tərəfindən həyata keçirilən bir növ təcrübədir ki, iştirakçılar nəinki sağ qalmalı, həm də yaşanan hadisələrdən sonra mövcud ola bilməlidirlər. Sülhün əsas səbəbi müəyyən bir cəmiyyətdə bu sistemlə ahəngdar münasibətlərə girməli və bir-biri ilə uyğunlaşmalı olan vahid, yaxşı qurulmuş əsas dəyərlər sisteminin və müvafiq davranış normalarının mövcudluğudur. Belə bir ittifaq zəiflədikdə beynəlxalq və ya vətəndaş müharibəsi üçün şərait yaranır.

Müharibələrin psixoloji və psixiatrik təsirləri diqqət mərkəzində olmuşdur. Müharibə stresinin psixi təzahürləri tarixən inkişaf etmiş simptomlardakı fərqlərə görə nostalji, mərmi şoku, əsgər ürəyi, Da Kosta Sindromu və travma sonrası stress pozğunluğu (TSSB) kimi müxtəlif adlarla adlandırılmışdır. Digər tərəfdən, reaksiyalar (ürək döyüntüsü, mədə şikayətləri, revmatik ağrılar, nevroloji və psixiatrik əlamətlər və s.) əlamətlər baxımından oxşarlıqlar göstərir. Müharibə stress reaksiyalarında aydın patologiyanın olmaması dəyişməz bir xüsusiyyət olaraq qaldı. Bu mənim həkimlərim üçün vacib problem olaraq qalır.

**Ədəbiyyat:**

1. Şəfiyeva E.İ., Qasımov C.Ə., Əhmədov N.S. “Hərbi psixologiya”, Bakı:Vətən, 2004, 261 s.
2. İsmayılov R.M., “Hərbi psixologiya və pedaqogika”. Bakı: Vətən, 2015, 274 s.
3. Кампеано М. Опыт военной психологии, индивидуальной и общей. СПб., 2002, 147 с.
4. Плотинский Ю.М. Теоретические и эмпирические модели социальных процессов. М. Логос, 2001,119 с
5. World Health Organization. World health report 2001 – Mental health: new understanding, new hope. Geneva: Switzerland; 2001, 1200 p.

# WAR AS A SOCIAL PSYCHOLOGICAL PHENOMENON

**Zulgayda Mollayeva**

## ABSTRACT

The history of mankind can be understood as a process of alternating periods of war and peace, clashes between different tribes, principalities and states. The main reason for peace is the existence of a single, well-established system of core values and appropriate norms of behavior in a given society, which must enter into harmonious relations with this system and be compatible with each other. When such a union weakens, conditions are created for an international or civil war.

War is one of the most difficult tests of the human spirit, people's psychological and physical capabilities. This is a kind of practice carried out by the authorities and politicians, in which the participants must not only survive, but also be able to exist after the events. Danger, death of comrades, injuries, constant violence and pain - these are the stressors that determine the super-extreme conditions of life in combat.

The psychological and psychiatric effects of wars have been in the spotlight. Psychiatric manifestations of war stress have been called by different names, such as nostalgia, shell shock, soldier's heart, Da Costa Syndrome, and post-traumatic stress disorder (PTSD), due to differences in symptoms that have historically evolved. On the other hand, reactions (heart palpitations, stomach complaints, rheumatic pains, neurological and psychiatric symptoms, etc.) show similarities in terms of signs and symptoms. The lack of clear pathology in war stress reactions has remained an unchanging feature. It remains an important problem for my doctors.

Rəyçi R.V.Cabbarov, psixologiya elmləri doktoru, dosent.
Məqalə redaksiyaya 02 aprel 2021-ci ildə daxil olmuşdur.

UOT 510.2

# TƏHSİL PROSESİNDƏ NƏZƏRİ TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASININ ŞƏRTLƏRİ VƏ REALLAŞDIRILMASI İMKANLARI

**Pərvanə Məmmədova**

*Gəncə Dövlət Universiteti*
*Heydər Əliyev prospekti 429, indeks: AZ 2001*
*E-mail: pervane_memmedova_1974@mail.ru*

***Açar sözlər:*** *nəzəri təfəkkür, kiçikyaşlı məktəbli, təhlil, planlaşdırma, refleksiya, kompleks tapşırıqlar, yaş xüsusiyyətləri, motivləşmə, təhsil mühiti, psixoloji komfort, pedaqoji şərt.*
***Keywords:*** *theoretical thinking, schoolchildren, analysis, planning, reflection, complex issues, age peculiarities, educational environment, psychological comfort, pedagogical conditions.*

## GİRİŞ

Nəzəri təfəkkür şagirdlərin obyektiv gerçəkliyi daha dərindən dərk etmələrini təmin edir. Onlarda müstəqillik və tənqidilik kimi müsbət əqli keyfiyyətlərin inkişafı üçün şərait yaradır. Digər tərəfdən, şagirdlərin kollektivə, ətraf mühitə və bütövlükdə cəmiyyətə sosial adaptasiyasının təşkil olunmasında nəzəri təfəkkürün rolu böyükdür. Şagirdlərdə nəzəri təfəkkürün formalaşması yüksək təhsil nəticələri əldə etmək üçün vacib amillərdən biridir. Çünki nəzəri təfəkkür şagirdlərin təlim işlərini sistemləşdirməsinə, qarşıya çıxacaq mümkün çətinlikləri vaxtında aşkar etməsinə və aradan qaldırmasına imkan yaradır.

Ibtidai siniflərdə təhlil, planlaşdırma, refleksiya kimi nəzəri fikri işlərin formalaşdırılması məqsədyönlü xarakter daşımalıdır. Bu proses kiçik məktəb yaşı dövründə nəzəri təfəkkürün formalaşdırılması üçün mümkün imkanları müəyyənləşdirməyə şərait yaradır. Bu baxımdan, şagirdlərdə nəzəri təfəkkürün təhlil, planlaşdırma və refleksiya kimi komponentlərinin inkişaf etdirilməsinə yönəldilmiş xüsusi tapşırıqların təşkil edilməsi müasir təhsilin qarşısında duran aktual məsələlərdən biridir.

Lakin nəzərə almaq lazımdır ki, ibtidai sinif şagirdləri üçün nəzəri təfəkkürün inkişaf etdirilməsinə yönəldilmiş tapşırıqlar seçərkən

